# BU GÜN BÜTÜN DÜNYA GÖRDÜ Kİ, QARABAĞ AZƏRBAYCANDIR!


"ALİ TƏHSİLDƏ TƏLİM VƏ TƏDRİS ETİKASI" MÖVZUSUNDA VEBİNAR
səhifə-2-də

GƏLƏCƏYİN MEMARLARI DAĞLIQ QARABAĞIN BƏRPASI ESKİZLƏRİNİ HAZIRLAYIB
səhifə-3-də

TARİXİ QƏLƏBƏ
səhifə-4-də

ÖLÜMÜ İLƏ ÖLÜMSÜZLÜK QAZANAN ƏBƏDİ QƏHRƏMANLARIMIZ
səhifə-5-də

QARABAĞDA GÖRÜŞƏNƏDƏK
səhifə-8-də


NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ AZƏRBAYCANIN ƏN DƏYƏRLİ, QABAQCIL ALİ MƏKTƏBLƏRİNDƏN BİRİDİR

*HEYDƏR ƏLİYEV*




# YENİ FİKİR

TƏSİSÇİ: NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

23 dekabr 2020-ci il, №4 (33)


## UNİVERSİTETİN KOLLEKTİVİ XALÇA MUZEYİNDƏ OLUB



"Muzey günləri" çərçivəsində Naxçıvan Dövlət Xalça Muzeyində olan universitet kollektivinə bildirilib ki, 1998-ci ildən fəaliyyət göstərən muzey 2010-cu ildən yeni binaya köçürülüb. 2013-cü ildə muzeydə yenidənqurma işləri aparılıb ekspozisiya yenidən təşkil olunub. Qeyd olunub ki, Naxçıvan Dövlət Xalça Muzeyinin xalçaçılıq sənətinin təbliği, yaşadılması sahəsində özünəməxsus yeri var və muzeyin fəaliyyətində yaddaqalan mədəni hadisələr, görüşlər olub. 1999-cu ilin oktyabr ayında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasının yaradılmasının 75 illiyi ilə əlaqədar Naxçıvana səfəri zamanı bu muzeydə olması da əlamətdar hadisələrdən ən yaddaqalanıdır.

Vurğulanıb ki, Naxçıvan xalçaları qədim zamanlardan Azərbaycan xalçaçılıq sənətinin ən gözəl nümunələri hesab edilir. Muzeyin fonduna 4000-ə yaxın eksponat toplanıb ki, onlardan 400-dən çoxu ekspozisiyada sərgilənir. Bunlar Naxçıvan qrupuna aid çoxlu sayda xovlu və xovsuz xalça nümunələri, xalçaçılıq məmulatları, məişət əşyalarıdır. Palaz, cecim, kilim, şəddə, zili kimi xovsuz xalçalar, sujetli, portret və miniatür xalçalar, o cümlədən müxtəlif əl işləri, tikmələr, toxuculuq alətləri, xurcun, duz torbası və digər eskponatlardır.

Qeyd olunub ki, Azərbaycan xalçaları 2010-cu ildə UNESCO-nun "Qeyri-maddi mədəni irs" siyahısına daxil edilib.

Muzeyin bələdçisi bildirib ki, muzeyin 2013-cü ildə üç dildə internet saytı istifadəyə verilib. Bu da muzeyi virtual səyahət etməyə, ziyarətçilərə ekspozisiyadakı eksponatlarla bağlı məlumatlar verməyə, tarixi keçmişimizi öyrənməyə imkan yaradıb.

Sonda universitetin Pedaqoji fakültəsinin Texnologiya müəllimliyi ixtisası üzrə III kurs tələbələrinin toxuduğu xalça muzeyə hədiyyə edilib.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

## OXUNMASI ZƏRURİ OLAN KİTABLAR HAQQINDA NÖVBƏTİ DƏYİRMİ MASA

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Oxunması zəruri olan kitablar haqqında" 28 avqust 2017-ci il tarixli Sərəncamına əsasən Naxçıvan Dövlət Universiteti İqtisadiyyat və idarəetmə fakültəsində "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Yeni əsr və III minillik münasibətilə Azərbaycan xalqına müraciəti" kitabı dəyirmi masada müzakirə edilib. Dəyirmi masanı giriş sözü ilə açan universitetin rektoru Elbrus İsayev gənc nəslin vətənpərvərlik, tarixi kökə bağlılıq ruhunda tərbiyə edilməsində Sərəncamın əhəmiyyətindən bəhs edib və kitabın məziyyətlərindən danışıb. Bildirilib ki, bu nəşr xalqımız üçün əhəmiyyət kəsb edən tarixi məqamları əhatə edir və kitabda tariximizin bütün dövrləri təhlil olunur. Rektor 1995-ci il 16 dekabr tarixində parlamentin sessiyasında cənab Vasif Talıbovun Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri seçilməsi münasibətilə hər kəsi təbrik edib. Vurğulanıb ki, muxtar respublikamız davamlı inkişaf və tərəqqiyə Cənab Sədrin gərgin və yorulmaz əməyi sayəsində nail olub.

YAP Universitet şəhərciyi ərazi ilk təşkilatının sədri Asəf Əliyev "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin yeni əsr və III minillik münasibətilə Azərbaycan xalqına müraciəti"nin gənclərin vətənpərvərlik ruhunda böyüməsində rolu və əhəmiyyəti" mövzusunda çıxış edib. Bildirilib ki, ulu öndər Heydər Əliyevin gənclər siyasəti əsrlər boyu xalqımızın malik olduğu milli, mənəvi dəyərlər əsasında müstəqillik, dövlətçilik, azadlıq və onların qorunması uğrunda mübariz ruhlu gənc nəslin yetişdirilməsindən ibarət olub. Ümummilli liderimiz hər zaman gənclərimizə böyük diqqət bəsləyib, bu dövlətə sahib dura biləcək bir nəslin yetişməsinə xidmət edib və dəfələrlə Azərbaycanın gələcəyinin gənclərin əlində olduğunu qeyd edib.



Tarix fənninin tədrisi metodikası və metodologiyası ixtisası üzrə II kurs magistr Nurtac Zeynalova "Ümummilli lider Heydər Əliyev və Azərbaycançılıq ideologiyası" mövzusunda çıxış edib.

Sonra Yeni Azərbaycan partiyası sıralarına qəbul olunmuş gənclərə üzvlük vəsiqələri təqdim edilib. Tələbələrin mövzu ilə bağlı sualları cavablandırılıb. Sonda "Ümummilli lider Heydər Əliyev və Azərbaycan dövlət müstəqilliyi" adlı videoçarxa baxış olub.

**Telli Mustafayeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***

## İĞDIR UNİVERSİTETİNİN NÜMAYƏNDƏ HEYƏTİ NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNDƏ



Naxçıvan Dövlət Universitetində İğdır Universiteti rektorunun başçılıq etdiyi nümayəndə heyəti ilə görüş olub. Görüşdə Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayev, İğdır Universitetinin rektoru, professor Mehmet Hakkı Alma, rektor köməkçisi və Fənn ədəbiyyat fakültəsinin dekanı, professor İbrahim Demirtaş, Ziraət fakültəsinin dekanı, professor Veli Uygur, İnşaat və texniki şöbə müdiri Nedim Duman iştirak ediblər.

Rektor qonaqları salamlayaraq ali təhsil ocağının malik olduğu imkanlar, fakültələr, tədris edilən ixtisaslar və beynəlxalq əlaqələr haqqında geniş məlumat verib. Xalqımızın qazandığı tarixi Qələbədə qardaş ölkənin də siyasi-mənəvi dəstəyini yüksək qiymətləndirən rektor ölkələrarası münasibətləri birgə qardaşlığın ən yüksək nümunəsi kimi dəyərləndirib. Universitetə qəbul olan əcnəbi tələbələrin siyahısında türkiyəli tələbələrin daha çox üstünlük təşkil etdiyini qeyd edən rektor bunun səbəbini dil, din birliyi, ortaq adət-ənənələrə sahib olmağımızla əlaqələndirib.

İğdır Universitetinin rektoru, professor Mehmet Hakkı Alma da, öz növbəsində, mənfur düşmən üzərində qələbəmiz münasibətilə təbriklərini çatdırıb. Qeyd olunub ki, bu qələbə təkcə azərbaycanlıların deyil, bütün Türk dünyasının qələbəsidir.

Görüşdə elm-təhsil sahələrində ortaq layihələr reallaşdırmaq, birgə elmi araşdırmalar apararaq nəşrlər hazırlamaq, elmi konfrans və simpoziumlar, toplantılar təşkil etmək, tələbə-müəllim mübadiləsini genişləndirmək, müxtəlif idman növləri üzrə universitetlərarası yarışlar keçirmək məsələləri müzakirə edilib

Sonra Tibb fakültəsində olan qonaqlara məlumat verilib ki, 2019-cu ildə yenidən qurularaq istifadəyə verilən fakültə yüksək maddi-texniki baza ilə zənginləşdirilib. Tələbələrin bu ixtisas üzrə həm nəzəri, həm də təcrübi dərsləri keçmələri üçün burada hər cür şərait yaradılıb. Bunun nəticəsində fakültədə təhsil almağa əcnəbi vətəndaşlar arasında da maraq artıb. Bu il fakültəyə qəbul olan 336 xarici tələbədən 260-sı Türkiyə Respublikasındandır.



Laboratoriyalarda olan qonaqlar Fitoterapiya və apiterapiya sahəsində Naxçıvan Dövlət Universiteti ilə gələcək əməkdaşlıq perspektivləri və ortaq layihələrlə bağlı müzakirələr aparıblar.

Universitetin xəstəxanasına gələn qonaqlar buradakı şəraitdən, yaradılan imkanlardan məmnunluqlarını ifadə ediblər. Baytarlıq təbabəti ixtisasının müasir tədris binasında olan qonaqlara məlumat verilib ki, bu ixtisas üçün ayrıca binanın mövcudluğu göstərilən dövlət dəstəyinin təzahürüdür. Pedaqoji fakültənin nəzdində fəaliyyət göstərən Texnologiya Mərkəzində - Toxuma və tikiş kabinəsi, Xalçaçılıq, Kulinariya Mərkəzi, Ağac emalı və metalkəsmə emalatxanasındakı müasir tədris imkanları, həmçinin fakültədə yeni yaradılan Atıcılıq Mərkəzi ilə tanış olan qonaqlar universitetdəki imkanlardan məmnunluq duyublar.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

# "ELEKTRON KİTABXANALARIN TƏŞKİLİ VƏ FORMALAŞMASI PROBLEMLƏRİ" ADLI ONLAYN RESPUBLİKA KONFRANSI

Naxçıvan Dövlət Universitetində "Elektron kitabxanaların təşkili və formalaşması problemləri" adlı onlayn respublika elmi konfransı keçirilib. Konfransı giriş sözü ilə açan universitetin rektoru Elbrus İsayev qeyd edib ki, elektron kitabxanalarda informasiya texnologiyalarının tətbiq edilməsi istifadəçilərə dünya informasiya məkanına daxil olması baxımından daha geniş imkanlar yaradır. Rektor bildirib ki, kitabxana fəaliyyətinin təkmilləşdirilməsi və yeni texnologiyaların tətbiqinin təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidenti tərəfindən 20 aprel 2007- ci il tarixli "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" Sərəncamı və 6 oktyabr 2008-ci il tarixli "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı" qəbul olunub.

"M.F.Axundzadə adına Azərbaycan milli kitabxanasının biblioqrafik verilənlər bazaları" adlı çıxışında Bakı Dövlət Universiteti Biblioqrafiyaşünaslıq kafedrasının müdiri Nadir İsmayılov bildirib ki, Azərbaycanın baş kitabxanası nəinki Qafqazda, hətta bütün dünyada tanınan ən böyük milli kitabxanalardan biridir. Kitabxanaya Nazirlər Kabinetinin qərarı ilə "Milli Kitabxana" statusu verilib ki, bu da kitabxanamızın fəaliyyətinə verilən ən yüksək qiymətdir.

UNEC Kitabxana-İnformasiya Mərkəzinin direktoru Adilə Abdullayeva Mərkəzin elektron resursları və elektron xidmətlər haqda çıxışında vurğulayıb ki, mərkəz universitetin tədris prosesinə, elmi-tədqiqat və innovativ fəaliyyətinə uyğun olaraq fondunu Azərbaycan, ingilis, rus və türk dillərində kitab, jurnal, qəzet, tədris proqramı, dissertasiya, avtoreferat və digər kitabxana-informasiya resursları ilə formalaşdırır, mühafizəsini və ondan istifadəni təmin edir.

Naxçıvan Dövlət Universiteti Elmi Kitabxanasının direktoru Fariz Əhmədov "Elektron kitabxanalar və virtual xidmət" mövzusunda çıxış edib. Diqqətə çatdırılıb ki, kitabxanaya üzv olan hər bir oxucu elektron kataloq vasitəsilə kitabxanaya gəlmədən kitabxana@ndu.edu.az emaili vasitəsilə kitab, jurnal və qəzet sifariş verə bilər.

"Azərbaycan elminin inkişafında elektron kitabxanaların rolu" adlı çıxışında AMEA Naxçıvan Bölməsi Elmi Kitabxanasının direktoru Sahab Əliyeva elektron kitabxanalardan istifadə qaydaları, mövcud resurslardan istifadə qaydaları haqda ətraflı məlumat verib.



Bakı Dövlət Universitetinin Elmi Kitabxanasının direktoru Nigar İsmayılova "Elektron kitabxananın yaradılmasının proqram və texniki təminatı" mövzusunda çıxış edib.

"Elektron kitabxanaların universitetlərin akademik inkişafına təsiri" adlı çıxışında Naxçıvan Universiteti Elmi Kitabxanasının müdiri Zamin Babazadə elektron kitabxanalarda müasir informasiya texnologiyalarının istifadə imkanları, bu sahədə tətbiq olunan intellektual vasitələr və trendlər haqda ətraflı məlumat verilib.

Konfrans "Elektron kitabxanaların müasir inkişaf istiqamətləri" adlı bölmə iclası ilə davam edib.

# ABŞ UNİVERSİTETLƏRİ İLƏ ONLAYN TƏLİMLƏR DAVAM EDİR

Naxçıvan Dövlət Universitetinin İqtisadiyyat və idarəetmə fakültəsində ilk dəfə qəbul aparılan ingiliscə İqtisadiyyat ixtisası üzrə kadr hazırlığı davam edir. Bu məqsədlə yeni ixtisasda dərslərə məşğul olacaq müəllimlər və habelə fakültə tələbələri üçün ABŞ-ın Şimali İllinoys Universitetinin professorlarının onlayn məşğələləri təşkil olunub.

Təlimdə ilk olaraq "Biznesə giriş və biznes strategiyası" mövzusunda professor Paul Prabhaker, "Sahibkarlıq və kiçik biznesin inkişafı" məşğələsini isə ABŞ-ın İndiana şəhərində yerləşən Purdue Universitetinin professoru Jamaluddin Husain keçib. Noyabrın 16-da təlimin növbəti 10-cu məşğələsi olub. "Keyfiyyət idarəetməsi" mövzusunda təqdimat aparan professor Con Kalaras qlobal rəqabət şəraitində firmaların həyata keçirdiyi strategiya, müxtəlif ölkələrdə bunun üçün tətbiq olunan modellər barədə geniş məlumat verib.

Təlimlər sentyabr ayından başlayıb və dekabrın 7-dək davam edib.

# "İSTİQAMƏTLİ PROYEKSİYA EKRANININ OPTİK DİZAYNI" ADLI VEBİNAR

Naxçıvan Dövlət Universitetində "İstiqamətli proyeksiya ekranının optik dizaynı" adlı vebinar keçirilib. Vebinarı Yaponiyada yaşayan həmyerlimiz, elektronika üzrə elmlər doktoru, professor Xəlil bəy Kələntər keçib.

Tədbiri giriş sözü ilə açan universitetin rektoru Elbrus İsayev mövcud şəraitdə bu cür tədbirlərin əhəmiyyətini qeyd edib. Vurğulanıb ki, tələbələrlə birgə müəllimlərin də seminarlardan təcrübi cəhətdən faydalanması onun əhəmiyyətini artırır.

Dünya şöhrətli azərbaycanlı alim proyeksiya ekranları barədə danışıb və ilk dəfə belə ekranların tətbiqinin verə biləcəyi mənfəət açıqlanıb.

Sonda müəllim və tələbələrin mövzu ilə əlaqədar sualları cavablandırılıb.



# "STOMATOLOGİYADA MÜASİR İNNOVASİYALAR" MÖVZUSUNDA BEYNƏLXALQ ONLAYN KONFRANS

Naxçıvan Dövlət Universitetində "Stomatologiyada müasir innovasiyalar" mövzusunda beynəlxalq onlayn konfrans keçirilib. Konfransı giriş sözüylə açan universitetin rektoru Elbrus İsayev qeyd edib ki, universitetdə 2012-2013-cü ildən tədrisi aparılan "Stomatologiya" ixtisasında 300 tələbə təhsil alır ki, bunlardan 199-u xarici ölkə vətəndaşıdır. Bu gündədək ixtisas üzrə fakültənin 88 tələbə məzunu olub ki, onlardan 18 nəfəri xarici ölkə vətəndaşıdır. Bildirilib ki, fakültənin əsas binasında yaradılan müasir tipli "Stomatoloji simulyasiya kabinəsi" 13 ədəd diş simulyatoru-fantom ilə təchiz edilib. Tədrisin yüksək səviyyədə təşkili, praktiki vərdişlərə yüksək səviyyədə yiyələnmək məqsədilə əsas praktiki dərslər bu kabinədə keçirilir. Rektor onu da vurğulayıb ki, universitet xəstəxanasında hazırda normal, pediatrik və implantoloji olmaqla 3 stomatoloji kabinə fəaliyyət göstərir. Yaxın zamanlarda 2 yeni diş kabinəsinin istifadəyə verilməsi planlaşdırılır.

Konfransın moderatorları Azərbaycan İmplantoloq İctimai Birliyinin sədri, dosent Cabbar Həsənov, Naxçıvan Dövlət Universiteti Tibb fakültəsinin dekanı dosent Elsevər Əsədov tədbir haqda məlumat verərək keçirilən konfransın elmi və təcrübi əhəmiyyətini qeyd ediblər.

Azərbaycan Tibb Universiteti "Ortopedik stomatologiya" kafedrasının uzman həkimi Elçin Abbasov "Diş yonmalarının mühüm nüansları" adlı çıxışında dişyonma texnikasında istifadə edilən metodlardan danışıb. Bildirilib ki, dişyonmada əsas diqqət etməli məqam onları daha çox yonmadan uzunmüddətli olmasını təmin etməkdir.



"Endodontiyanın gücü" adlı çıxışında Van Yüzüncü Yıl Universitetinin dosenti Esin Özlək diş kanallarının düzgün müalicə üsullarından danışıb.

Kahramanmaraş Sütçü İmam Universiteti "Ağız-diş və çənə cərrahiyyəsi" kafedrasının uzman həkimi Eldar Nəcəfov "Anesteziya: materiallar və yöntəmlər" adlı çıxışında müalicə metodunda anesteziya üsullarından, Ukrayna Stomatoloqlar Assosiasiyasının prezidenti, professor İrina Mazur "Generalizə paradontitdə diaqnostika və müalicənin müasir protokolları" adlı çıxışında isə müasir dövrdə geniş yayılmış Paradontoz diş əti xəstəliklərindən ətraflı məlumat verib.

""All on 4" texnikasında ənənəvi və digital üsulların qarşılaşdırılması" adlı çıxışında Azərbaycan İmplantoloq İctimai Birliyinin sədri Cabbar Həsənov az sayda implantlarla daha çox diş qoymaq texnikası və xəstənin müvəqqəti protezlərlə təmin üsullarından ətraflı məlumat verib.

Naxçıvan Dövlət Universiteti "Stomatologiya" kafedrasının müdiri, həkim Rauf Cəfərov və həmin kafedranın müəllimi Zaur Hüseynov "Naxçıvan Muxtar Respublikasının əhalisi arasında kariyesin geniş yayılmasının başlıca səbəbləri və profilaktikası" mövzusunda çıxış ediblər. Sonda mövzu ilə bağlı müəllim və tələbələrin sualları cavablandırılıb.

# "ALİ TƏHSİLDƏ TƏLİM VƏ TƏDRİS ETİKASI" MÖVZUSUNDA VEBİNAR

Naxçıvan Dövlət Universitetində "Ali təhsildə təlim və tədris etikası" mövzusunda vebinar təlim keçirilib. Tədbiri giriş



sözü ilə açan universitetin Tədris və tərbiyə işləri üzrə prorektoru Rafiq Rəhimov bildirib ki, 30 ilə yaxın müddət idi ki, işğalda olan əzəli torpaqlarımızı 44 günlük davam edən Vətən müharibəsində işğalçılardan azad etdik. Paytaxt Bakımızda bu Zəfər günü ilə bağlı keçirilən hərbi parad münasibətilə universitet kollektivi adından hər kəsi təbrik edən prorektor bu qələbəni bizə yaşadan ordumuza, Ali Baş Komandanımız cənab İlham Əliyevə öz minnətdarlığını bildirib. Prorektor qardaş ölkəmizin də bu zəfər yürüşündə dövlətimizin yanında olmağından böyük sevinc hissi keçirdiyini Qırğızıstanın Manas Universitetinin Ədəbiyyat fakültəsi Pedaqoji elmlər kafedrasının professoru Dr. Kürşad Yılmazla söhbətində vurğulayıb. Rafiq Rəhimov qonağımızı Naxçıvan Dövlət Universiteti haqqında məlumatlandırıb.

Pr. Dr. Kürşad Yılmaz ilk öncə çıxışına Zəfər günü münasibətilə Azərbaycan xalqını təbrik edərək başlayıb və "Ali təhsildə təlim və tədris etikası" mövzusunda çıxışına davam edərək etik, əxlaq davranışlarından və onların fərqindən danışıb. Professor təhsil proqramlarında vətəndaş yetişdirmək, şəxsiyyət inkişaf etdirmək, peşə qazanmaqda etik və əxlaqın vacib olduğunu vurğulayıb. Sonda vebinar iştirakçılarının sualları cavablandırılıb.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

# "PANDEMİYA DÖVRÜNDƏ ONLAYN TELEMEDİCİNE" MÖVZUSUNDA VEBİNAR

Naxçıvan Dövlət Universitetində ABŞ-da yaşayan DOCOFIT şirkətinin qurucusu Rahib Heydərov "Pandemiya dövründə onlayn telemedicine" mövzusunda vebinar təlim keçib.

Təlimdə Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin, professor-müəllim heyəti, rezident və tələbələri, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin əməkdaşları iştirak ediblər. Vebinarı giriş sözü ilə açan Naxçıvan Dövlət Universiteti Elmi tədqiqatların əlaqələndirilməsi bölməsinin müdiri Rza Məmmədov bildirib ki, pandemiya səbəbi ilə bütün ölkələrdə insanların sağlamlıqları ilə əlaqədar xəstəxanalara getməsi və müayinə olunmasının riskli olduğu bir dövrdə "telemedicine"çox mühüm rol oynayır. Bununla bağlı olaraq Naxçıvan Muxtar Respublikasında tibb sahəsində informasiya-kommunikasiya texnologiyalarının imkanlarından geniş istifadə olunması üçün quruculuq işləri aparılıb və dünya standartlarına cavab verəcək şəkildə formalaşdırılıb.




DOCOFIT şirkətinin qurucusu Rahib Heydərov "Telemedicine və PEMAR (şəxsi elektron tibb sistemi) haqqında geniş məlumat verib. Hər hansı bir xəstəlik səbəbindən həkim yanına gedən şəxsin həmin andan etibarən şəxsi tibbi qeyd sistemi yaradıldığını və burada xəstəliklərin nəzarəti və izlənməsinin vacib olduğunu bildirib. Təlim iştirakçılarının diqqətinə çatdırılıb ki, müasir dövrdə "telemedicine"dən geniş istifadə olunur. İnsanlar karantin dövründə evdə oturub həkimlə "telemedicine" vasitəsilə əlaqə yarada və bununla da qarşı tərəfdəki həkim kilometrlərlə uzaqda olan xəstənin sənədlərini əldə edə bilər. Bu vasitə ilə həkim həm xəstə ilə onlayn ünsiyyətdə ola, həm də xəstənin analizləri, radioloji testləri, rentgenləri haqqında məlumatı birbaşa əldə edə bilir.

Sonda mövzu ilə bağlı suallar cavablandırılıb.

**Telli Mustafayeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***

# UNİVERSİTETİN ŞƏHİD TƏLƏBƏLƏRİ "VƏTƏN UĞRUNDA" MEDALI İLƏ TƏLTİF EDİLİBLƏR



YÜKSƏL ƏLİZADƏ



ORXAN KƏRİMLİ



TEYMUR OSMANLI

Naxçıvan Dövlət Universitetinin "Hüquqşünaslıq" ixtisası üzrə əlavə ali təhsil alan tələbələri Yüksəl Əlizadə, həmin ixtisas üzrə qiyabi təhsil alan Orxan Kərimli və Teymur Osmanlı Qarabağ uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olublar. Universitetdə şəhidlərə həsr edilmiş tədbirdə çıxış edən ali təhsil ocağının rektoru Elbrus İsayev 44 gün davam edən və şanlı Azərbaycan Ordusunun qələbəsi ilə nəticələnən Qarabağ zəfəri münasibətilə tədbir iştirakçılarını təbrik edib. Vurğulanıb ki, qələbəyə Qarabağ müharibəsi dövründəki Ali Baş Komandan İlham Əliyevin göstərdiyi yüksək liderlik keyfiyyətləri və Azərbaycan Ordusunun müasir vasitələrlə və silahlarla təchiz olunaraq yüksək əhval-ruhiyyə ilə mübarizəyə başlaması nəticəsində nail olduq. Şəhidlərin vətən torpağı uğrunda axıtdıqları qan gənc nəslə nümunə olmalıdır - deyən rektor gəncləri tarixi keçmişimizi unutmamağa və gələcək nəslə çatdırmağa səsləyib.

Qeyd edək ki, universitetin əsas binasında şəhidlərin əziz xatirəsinə həsr edilmiş guşə yaradılıb.

Məlumat üçün onu da bildirək ki, Prezident İlham Əliyev dekabrın 15-də Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən ali təhsil ocağının şəhid tələbələri də Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak etdiklərinə və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdikləri üçün Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları ilə birgə "Vətən uğrunda" medalı ilə təltif ediliblər. Allah bütün şəhidlərimizə rəhmət eləsin!!!

# GƏLƏCƏYİN MEMARLARI DAĞLIQ QARABAĞIN BƏRPASI ESKİZLƏRİNİ HAZIRLAYIB

Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsində sərgi təşkil olunub. Sərgidə erməni işğalından azad edilmiş yurd yerlərinin bərpası ilə bağlı tələbələrin hazırladığı eskizlər, qrafik işləri nümayiş edilib.

Tədbirdə çıxış edən universitetin rektoru Elbrus İsayev Azərbaycanın ərazi bütövlüyünün bərpa edildiyini, bu böyük zəfərin xalqımıza və dünya azərbaycanlılarına bəxş etdiyi qürür, fəxarət hissinin əvəzsiz olduğunu bildirib. Qarabağ Qələbəsinin ölkəmizin rəhbərliyinin səriştəsi, Milli Ordumuzun gücü və xalqın dəstəyi nəticəsində əldə olunduğunu vurğulayıb.



Ali Baş Komandanın qətiyyəti və ordunun döyüş şücaəti nəticəsində Dağlıq Qarabağın mənfur düşmən tapdağından azad olunması münasibətilə hər kəsi təbrik edən rektor vətənimizin dilbər guşələrindən olan Qarabağın tarixi və mədəni irsindən də danışıb:"Çox qürurlandırıcı haldır ki, bu gün gələcəyin memarı olacaq tələbələr işğaldan azad edilən torpaqların bərpası ilə bağlı layihələrini təqdim edirlər".

Rektor bütün tələbələri bu münasibətlə təbrik edib, hazırlanan eskizlərin gələcəkdə istifadə olunması ilə bağlı arzu və təkliflərini çatdırıb.

Memarlıq və mühəndislik fakültəsinin dekanı, professor Cavanşir Zeynalov tələbələrin belə bir sərgini təşkil etməsindən qürur duyduğunu bildirib və onlara uğurlar arzulayıb.

Memarlıq ixtisası üzrə III kurs tələbəsi İlahə Babayeva bu cür sərginin təşkilinə görə tələbələr adından universitet rəhbərliyinə öz minnətdarlığını bildirib.

Qeyd edək ki, sərgidə təqdim olunan Xudafərin körpüsünün maketi ən maraqlı təqdimatlardan olub. Memarlıq ixtisası üzrə IV kurs tələbəsi Cavid Məmmədov bu tarixi tikilinin bərpası istiqamətində öz təkliflərini sərgi iştirakçılarının diqqətinə çatdırıb.

Sonda rektor tələbələrin əl işlərini qiymətləndirib və sərgi iştirakçılarına "Oxunması zəruri olan kitablar" siyahısında yer alan kitablardan təqdim edib.

# "DÖVLƏT VƏ HÜQUQİ TƏLİMLƏR" ADLI DƏRS VƏSAİTİNİN TƏQDİMATI

Naxçıvan Dövlət Universiteti Beynəlxalq münasibətlər və hüquq fakültəsində "Hüquq fənləri" kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Şükür Məmmədovun "Dövlət və hüquqi təlimlər" adlı dərs vəsaitinin təqdimatı keçirilib. Təqdimatı giriş sözüylə açan universitetin rektoru Elbrus İsayev dərs vəsaitinin elmi əhəmiyyətini önə çəkib. Qeyd edilib ki, "Dövlət və hüquqi təlimlər" həm də tədris fənni və elm sahəsi olub nəzəri və tarixi təmayüllüdür, hüquq nəzəriyyəsi, hüquq və dövlət tarixi kimi elmlərlə əlaqəlidir. Böyük tədqiqat işi və tarixi faktlarla zəngin bir mövzunu əhatə etdiyinə görə rektor müəllifi bu münasibətlə təbrik edib və gələcək elmi fəaliyyətində uğurlar arzulayıb.



Fakültənin dekanı, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Yusif Hüseynov bildirib ki, ali məktəb tələbələri və magistrləri üçün nəzərdə tutulan dərs vəsaitində qədim dövrlərdən başlayaraq zəmanəmizə qədər dünyanın müxtəlif regionlarında meydana çıxan dövlət və hüquqi təlimlər nəzərdən keçirilir, onların başlıca cəhətləri, meydana gəlmə xüsusiyyətləri, müasir dövrlə səsləşən məqamları təhlil edilir.

Hüquq fənləri kafedrasının müəllimi Əziz Qasımov qeyd edib ki, kitab həm də dövlətçilik, idarəçilik və hüququn tarixi ilə maraqlanan oxucu kütləsi üçün də nəzərdə tutulub. Burada məqsəd oxucuları keçmiş zamanlardan zəmanəmizə qədərki dövrdə dövlətçilik və hüquq haqqında ən diqqətəlayiq təlimlərlə tanış etmək onların elmi və nəzəri səviyyəsinin yüksəlməsinə yardım etməkdir.

Universitetin son illərdə qazandığı nailiyyətlər təhsilimizə göstərilən yüksək diqqət və qayğının bəhrəsidir-deyən müəllif universitet mühitində yaradıcı insanların elmi-pedaqoji fəaliyyəti üçün göstərilən dövlət dəstəyinə görə minnətdar olduğunu bildirib.

# "NAXÇIVANDA MEYVƏÇİLİK VƏ TƏRƏVƏZÇİLİYİN İNKİŞAFININ REGİONAL XÜSUSİYYƏTLƏRİ" MÖVZUSUNDA MÜZAKİRƏ

Naxçıvan Dövlət Universitetinin təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsində "Naxçıvanda meyvəçilik və tərəvəzçiliyin inkişafının regional xüsusiyyətləri" mövzusunda dəyirmi masa keçirilib.

Fakültənin dekanı, kimya üzrə fəlsəfə doktoru, dosent Şəmil Mahmudov bildirib ki, "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın icrası nəticəsində bu sahədə yüksək göstəricilərə nail olunub. Vurğulayıb ki, muxtar respublikada bu sahəyə olan xüsusi diqqət və qayğının nəticəsində meyvəçiliyin inkişafı üçün çıxış yolları müəyyən edilib, qısa zamanda yeni meyvə bağları yaradılıb.

Biologiya üzrə fəlsəfə doktoru, dosent Hilal Qasımov Naxçıvanda tərəvəzçiliyin inkişaf istiqamətləri mövzusunda çıxış edib. Nəzərə çatdırıb ki, adıçəkilən dövlət proqramının icrası muxtar respublika əhalisinin meyvə-tərəvəz məhsullarına olan tələbatının, əsasən, yerli istehsal hesabına ödənilməsinə səbəb olur.

Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşı Xaliq Abbasov muxtar respublikada meyvəçiliyin inkişafına dövlət dəstəyi mövzusunda məruzə edib. Vurğulanıb ki, hər il meyvə bağları üçün əkin sahələrinin çoxaldılması istehsal həcminin artması ilə yanaşı, idxaldan asılılığın aradan qaldırılmasına da müsbət təsir göstərib.

Sonda müəllim və tələbələrin mövzu ilə bağlı sualları cavablandırılıb.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

# "AZƏRBAYCAN XALÇAÇILIQ SƏNƏTİ" ADLI DƏRS VƏSAİTİNİN TƏQDİMATI

Naxçıvan Dövlət Universiteti Elmi Kitabxanasında Təsviri incəsənət kafedrasının müəllimi Ləman Məmmədovanın "Azərbaycan xalçaçılıq sənəti" adlı dərs vəsaitinin təqdimatı olub.

Universitetin rektoru Elbrus İsayev qeyd edib ki, tarixboyu Naxçıvan xalçaçılıq məktəbinin nümunələri özünəməxsus ornamentləri ilə fərqlənib və müxtəlif yazılı mənbələrin məlumat obyektinə çevrilərək xalqın maddi-mədəni irsinin formalaşmasında mühüm rol oynayıb.

Kafedranın baş müəllimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Naxçıvanın Əməkdar rəssamı Həbibə Allahverdiyeva kitab haqda məlumat verərək bildirib ki, dərs vəsaitində xalçaçılıq tarixi, onun texnikası, xalça növləri, onların ideya-bədii xüsusiyyətlərinin inkişaf mərhələləri, xalça sənəti məktəbləri barədə ətraflı bilgilər var. Onun sözlərinə görə, incəsənət fakültəsinin bakalavr, magistr, həmçinin xalça sənəti ilə maraqlanan geniş oxucu kütləsi üçün nəzərdə tutulan dərs vəsaiti tədqiqatçıların xalçaçılıq sənətinə dair çoxillik tədqiqatları, dəyərli əsərləri əsasında tərtib edilib.

Elmi Kitabxananın direktoru Fariz Əhmədov bildirib ki, kitabda dekorativ tətbiqi incəsənət, Azərbaycanda dekorativ tətbiqi sənət növləri, xalçaların təsnifatı, məşhur xalçaçı-rəssam Lətif Kərimovun həyat və yaradıcılığından da bəhs olunur.

Sonda müəllifin rəsm əsərlərindən ibarət sərgiyə və Əzizə Məmmədovanın tərtib etdiyi xalçaçılıq kompozisiyasına baxış olub.



# "QARABAĞA QAYITDIQ" ADLI DƏYİRMİ MASA

Naxçıvan Dövlət Universiteti Elmi Kitabxanasında Qarabağda qazandığımız qələbə münasibətilə "Qarabağa qayıtdıq" adlı dəyirmi masa keçirilib. Tədbiri giriş sözü ilə universitetin Tədris və tərbiyə işləri üzrə prorektoru Rafiq Rəhimov açıb. Şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Vurğulanıb ki, şanlı qələbəmizin təməlində Ali Baş Komandanın sarsılmaz qətiyyəti və müzəffər şanlı ordumuzun rəşadəti durdu. Prorektor gənc nəslin təlim-tərbiyəsində bu cür tədbirlərin əhəmiyyətini önə çəkib.

Azərbaycan tarixi kafedrasının dosenti, tarix üzrə elmlər doktoru Sevinc Abbasova "Qarabağın coğrafi mövqeyi və tarixi haqqında elmi izahı" adlı çıxışında qeyd edib ki, Qarabağ təkcə Azərbaycanın deyil, ümumiyyətlə, dünyanın ən qədim tarixə malik olan diyarlarındandır. Azərbaycanın ayrılmaz parçası olan Qarabağın qədim və zəngin tarixinə nəzər salan Sevinc Abbasova qədim Azərbaycan tarixinin ən incə məqamlarına nəzər salıb, tarixi keçmişimizi tələbələrə ən xırda detallarına qədər izah edib.

44 günlük ikinci Qarabağ müharibəsi zamanı tələbələrin milli vətənpərvərlik ruhunda fəaliyyəti haqqında Riyaziyat müəllimliyi ixtisası üzrə IV kurs tələbəsi, Universitet Tələbə Gənclər Təşkilatının sədr müavini Hüseyn Məmmədov tarixi qələbə münasibətilə gəncləri təbrik edib. Vurğulanıb ki, gənclər tariximizi daha dərindən öyrənməli, gələcək nəsillərə örnək olmalı və baş verən hadisələri gələcək nəsillərə çatdırmalıdırlar.

Sonda müəllim və tələbələrin sualları cavablandırılıb, mövzu ilə əlaqədar müzakirə edilib.

**Elmir Tağıyev**
***"Jurnalistika" ixtisası üzrə II kurs tələbəsi***

# "ELMİ ƏSƏRLƏR" JURNALININ NÖVBƏTİ SERİYASI

Naxçıvan Dövlət Universitetinin "Elmi əsərlər" jurnalının "Təbiət və tibb elmləri" seriyası çapdan çıxıb.

Jurnalın bu nömrəsində Biologiya və aqrar elmlər, Kimya elmləri, Coğrafiya və yer elmləri, Tibb elmləri adlı bölmələrdə elm və təhsil müəssisələrində çalışan əməkdaşların əldə etdiyi yeni elmi nəticələr öz əksini tapıb.

"Elmi əsərlər" jurnalının çap olunan 256 səhifədən ibarət "Təbiət və tibb elmləri" seriyasında 88 müəllifin 48 elmi məqaləsi nəşr olunub ki, onların da əksəriyyəti universitet əməkdaşlarıdır.

Universitetin əsas hədəflərindən biri mühüm elmi-tədqiqat nəticələrinin əldə olunmasında və təbliğində böyük imkanlara malik "Elmi əsərlər" jurnalının potensialından geniş istifadə etməkdir. Son illər jurnalın elm aləmində daha geniş təmsil olunması üçün nüfuzlu elmi təşkilatlarla əməkdaşlıq əlaqələri qurulur.




Jurnal beynəlxalq elektron elmi informasiya məkanına inteqrasiya olunmaq üçün onun nömrələri onlayn şəkildə universitetin rəsmi internet saytında yerləşdirilir. Nəşr innovativ elmi nəticələrin əldə olunması baxımından ölkə səviyyəsində səmərəli elmi axtarışların aparılmasına etibarlı zəmin yaradır.

# "ZƏFƏR YÜRÜŞÜ" TƏDBİRİ KEÇİRİLİB

Naxçıvan Dövlət Universitetinin pedaqoji fakültəsində Azərbaycanın tarixi qələbəsinə həsr edilən "10 dekabr Zəfər yürüşü" münasibəti ilə tədbir təşkil olunub.

Universitetin tədris və tərbiyə işləri üzrə prorektoru Rafiq Rəhimov Ali Baş Komandanın rəhbərliyi, əsgərlərimizin döyüş bacarığı və xalqımızın qələbəyə inamı sayəsində qazanılan Zəfər münasibəti ilə bütün Azərbaycan xalqını təbrik edib. O, II Qarabağ döyüşlərində universitetdə təhsil alan tələbələrin də iştirakını diqqətə çatdırıb.



II Qarabağ döyüşlərində fəal iştirak edib Naxçıvana geri dönən Məşqçilik ixtisası üzrə I kurs (qiyabi) tələbəsi, qazi Ayxan Fərzəlizadə də tədbirdə çıxış edib. A.Fərzəlizadə Füzulidən Şuşaya qədər gedən şiddətli döyüşlərdə iştirak etdiyini qürur hissi ilə anladıb.

Qələbə münasibəti ilə universitetin stadionunda idmançıların hərbi idman oyunları keçirilib, Məşqçilik ixtisası üzrə I kurs (əyani) tələbəsi Özcan Babayevin qələbəyə həsr edilən fərdi sərgisinə baxış olub.

Sonda İncəsənət fakültəsinin dekanı, əməkdar rəssam Cavid İsmayılov və pedaqoji fakültənin dekanı Vəli Əliyev sərgi haqqında öz fikirlərini bildirib.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

# TARİXİ QƏLƏBƏ

Azərbaycan tarixin ən şərəfli bir gününü yaşayır, uzun illərdən bəri, 30 ilə yaxın bir dövrdə Azərbaycan xalqının hər bir nümayəndəsinin qəlbindəki arzusu reallığa çevrilib. Əsası ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuş məqsədyönlü siyasi xəttin Prezident cənab İlham Əliyev tərəfindən böyük uğurla həyata keçirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan artıq diplomatik, hərbi, iqtisadi, bütövlükdə, dövlət quruculuğu sahəsində özünü bütün dünyaya təsdiq edib. Biz özümüzü xoşbəxt hesab edirik ki, Azərbaycan tarixində son yüzilliklərin ən parlaq qələbə tarixinin canlı şahidi olduq. Bu, hər bir Azərbaycan vətəndaşı kimi, biz ziyalıların da böyük iftixar və sevincinə səbəb oldu. Nə qədər tariximizi oxusaq da, gözəl bilsək də, ona hər zaman sadiq qalsaq da, Qarabağsız bu tarix, sanki yarımçıq qalmışdı.

Məhz belə bir mənəvi boşluğu Ali Baş Komandanın böyük cəsarəti, qətiyyəti, müzəffər Ordumuzun böyük ruh yüksəkliyi, döyüş hazırlığı tamamladı. Azərbaycan, sadəcə, torpaqlarımızın işğaldan azad olunması ilə kifayətlənmədi, eyni zamanda Azərbaycan xalqı öz varlığını, milli məsələlərdəki həmrəyliyini, xalqımızın parlaq gələcəyini bütün dünyaya nümayiş etdirdi. Cənab Prezidentin ölkəyə uğurlu rəhbərliyinin, uzun illərdən bəri hərbi sahədəki yenidənqurmanın, hərbi texniki bazanın möhkəmləndirilməsi tarixi zəfərin, tarixi Qələbənin qazanılmasında əsas amil oldu. Burada müzəffər Ordumuzun mərdliyi, igidliyi böyük rol oynadı. Buna görə də qəhrəman əsgərlərimizin, böyük şücaətlər, qəhrəmanlıqlar göstərib, ərazi bütövlüyümüz uğrunda canlarından keçmiş şəhidlərimizin ruhu qarşısında baş əyirik. Borcumuzdur ki, gələcək nəsillərə ölməz, qəhrəman şəhidlərimizin keçdikləri həyat yolunu, Azərbaycan xalqı qarşısındakı xidmətlərini çatdıraq, onları böyük vətənpərvərlik nümunəsi kimi təbliğ edək, əsərlərimizdə, kitablarımızda, dərsliklərimizdə, tədbirlərimizdə onları yaşadaq. Beynəlxalq hüquqda qazandığımız nailiyyətlər, Azərbaycan iqtisadiyyatının əldə etdiyi uğurlar və dolayısı ilə bu iqtisadi uğurların hərbi sahədə təcəssümü, müdafiə sahəsində aparılan təkmilləşmələr, yeni infrastruktur layihələri, yeni sənaye sahələrinin inkişaf etdirilməsi Azərbaycanın bugünkü uğurlarının əsasını təşkil edir. Azərbaycanın



qazandığı qələbələr bundan sonra da Azərbaycan dövlətinin, cəmiyyətinin sürətli inkişaf yoluna qədəm qoyacağından xəbər verir. Çox böyük qürur hissi keçiririk ki, əzəli, qədim Azərbaycan torpaqlarına, Qarabağa qayıdırıq. Bir daha bu tarixi Qələbə münasibətilə müzəffər Azərbaycan Ordusuna, onun Ali Baş Komandanına minnətdarlığımızı bildiririk.

**Elbrus İsayev**

***Naxçıvan Dövlət Universitetinin rektoru, tarix üzrə fəlsəfə doktoru, dosent***

# BİZ BUNDAN SONRA QÜRUR HİSSİ İLƏ YAŞAYACAĞIQ

Nikbin, sevinc dolu yazıların, şeirlərin, poemaların yazılmasına bəlkə də yadırğamışdıq desəm - yanılmaram. 30 ildən bəri yazdıqlarımız, oxuduqlarımızın böyük əksəriyyəti həsrət, faciə, itkilər, bir də işğal altında olan torpaqlarımızla bağlı ürək yandıran xatirələrimiz olub. Sanki qələmimiz də, oxuyan gözlərimiz də dərddən, acıdan, məğlubiyyətdən yazıb-oxumağa alışmışdı. Amma, hər nə qədər məğlubiyyətlərimiz olsa da, hər birimizin içində işıqlı sabaha, xoşbəxt günlərin gələcəyinə ümidlər çox idi. Qarabağla bağlı arzularımız sanki bir şablona çevrilmişdi, hamı eyni cümlələri, eyni fikirləri səsləndirirdi. Bəzən gələcəyə olan nikbin ümidlərimizin əlçatmaz bir xülya kimi göründüyü anlar da olurdu.

30 il bütün dünyaya mənfur ermənilər tərəfindən işğala məruz qaldığımızı, dədə-baba torpaqlarımızdan didərgin düşdüyümüzü, qanlı faciələr yaşadığımızı dünyaya çatdırmağa çalışmışdıq. Bu çağırışın, bu informasiyaların verilməsinin çətinliyi, ağrısı, əzabı isə bir başqa idi. Çünki, 20 faiz torpaqlarımızın işğal olunduğunu dünyaya hayqırmaq bizə eyni zamanda utanc verirdi. Hər nə qədər səsimizi dünyaya çatdırmaq məqsədilə olsa da, qanlı faciələrimizdən, xalqımıza qarşı olan haqsızlıqlardan danışarkən başımız həmişə aşağı olurdu. İstər-istəməz məğlubiyyətimizin xəcalətini yaşayırdıq. Axı, xalqımız bu cür aşağılanmaya layiq deyildi. Tarix boyu məğrur sərkərdələri, yenilməz ordusu ilə dillərə dastan olan, az qala dünyanın yarısını fəth edən türklərə bu məğlubiyyət yaraşmırdı axı.

Düzdür, biz indi olduğu kimi 1990-cı illərin əvvəllərində də qorxmaz, qəhrəman xalq idik. Vətənimizin, torpaqlarımızın azadlığı uğrunda on minlərlə igid oğullarımızı şəhid vermişdik. Lakin o illərdə əliyalın döyüşürdük, hərbi sursatımız yox dərəcəsində, kömək və dəstəyimiz isə ümumiyyətlə yox idi. Və təbii ki, hər şeydən öncə xalqın, ordunun inamını qazanaraq onu arxasınca apara biləcək Ali Baş Komandana ehtiyac var idi.

Nəhayət, gözlədiyimiz gün gəlib çatdı. İllərdir, bizi üzən xəcalət hissi fəxarət duyğuları ilə əvəz olundu. O həsrət, o acı, o dinməyən göz yaşları tarixə gömüldü, 30 illik utancdan, namus damğasından azad olduq, Xocalı qurbanlarının, şəhidlərimizin qisasını aldıq. Düşmənə həm döyüş, həm siyasi-diplomatik, həm də informasiya meydanında qalib gəldik.

Qüdrətli Azərbaycanımız bütün dünyada xalqımıza, ölkəmizə, dövlətimizə qarşı formalaşan fikirləri alt-üst etdi, mümkünsüz olanı bacardı. Azərbaycan xalq, millət olaraq kimliyini sübut etdi, dövlətinin gücünü, nüfuzunu, türk millətinin yenilməzliyini dünyaya bir daha bəyan etdi, həm hərbi, həm də siyasi qalibiyyətini nümayiş etdirdi. Azərbaycan Prezidentinin qələbə rəmzinə çevrilmiş "Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!" şüarı bir daha təsdiqini tapdı. Bu tarixi qələbə yenilməz Azərbaycan Ordusu, xalq və Ali Baş Komandan birliyinin zəfəridir.

Bu gün qalib Azərbaycan vətəndaşı olmağımızla bir daha qürur duyuruq. Bizə bu hissləri, bu qüruru, bu fəxarət hissini yaşadan Ulu Öndərin layiqli davamçısı Ali Baş Komandan İlham Əliyevə və Müzəffər Ordumuza minnətdarıq. Vətənmiz, torpaqlarımız uğrunda canlarından keçən Şəhidlərimizin ruhu qarşısında baş əyirik!

***QƏLƏBƏMİZ ƏBƏDİDİR, SARSILMAZDIR!!!***

**Şəhla Şirəliyeva**

***Jurnalistika və xarici ölkələr ədəbiyyatı kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru***




**1991-ci il...**

Hər kəsin "Böyük Vətən" adlandırdığı Sovetlər ölkəsi tarixin bütün imperiyaları kimi teatral səhnə ilə vidalaşır...Hər rəqəmi qana boyanmış bir minillik də son nəğməsi ilə pərdələri bağlayır... Məşriqdə doğan al-günəş kimi yeni dövlətlər tarixin qaranlıq səhifələrindən boylanaraq "Dünyanın siyasi xəritəsi"ndə öz yerlərini almağa tələsirlər. Azadlıq təravətli Azərbaycan Respublikası isə məkrli güclərin göz dikdiyi saysız-hesabsız zillətlərin məkanına çevrilib...

**1995-ci il...**

Müstəqil Respublikanın müstəqil Konstitusiyası qəbul edilir... İlk rüşeymlərin cücərtiləri "zillətə qərq olmuş diyar"ı nurlu sabahlara daşıyır...

**2000-ci illər...**

Qafqazların parıldayan incisi dünyanı valeh edir...

Sosial təsisatlar, müasir məkanlar, Avropa Olimpiya Oyunları, İslam Həmrəyliyi Oyunları, Avroviziya mahnı müsabiqəsi, muğam müsabiqələri, nüfuzlu siyasi təşkilatların - BMT-nin qeyri daimi üzvlüyü, Qoşulmama Hərəkatına sədrlik...

**2020-ci il...**

Yenidən doğulan Azərbaycan ürəyindən ayrı qalmanın nisgilini çəkir. Hicran atəşi alovlanır... Dözülməz hədd...

**27 sentyabr 2020-ci il...**

Sonun başlanğıcı, başlanğıcın sonu...

Cəng təbili vurulur. Eşqə səfər başlanır. Qaçaq Nəbinin əzəmətli yurduna, Üzeyir bəyin musiqi diyarına, Vaqifin şux gözəlinə, Natəvanın qəzəlinə eşq səfəri başlanır...

İlk səda Vəhy mələyindən gəldi. Peyğəmbərlərə nida gətirən o mələk bizə də "İlahi nidanı" -şəhri-Cəbrayılın hür müjdəsini gətirdi. "Gözə görünməzlər" Bədr və Ühüddə olduğu kimi şəhpərlərin açmışdı xilaskar ordunun üzərinə...

Allah nidasına susamış dağlar və divarlar hər əzan səsi ilə Şəhri-Yar olur... Şuşa məscidi və adını daşıdığı Gövhərağa bizə "Ləbbeyk" deyir...



**8 noyabr 2020-ci il...**

8 may 1992-ci il yox! O, tarixdə məğrur duruşlu bir "8" düz 27 il yarım yolumuzu gözlədi... Yorğun duruşlu "8" Sən qalibsən, Sən qəhrəmansan, Sənin yeni duruşun əbədi istrahətə yatmaqla SONSUZLUQ yaradır... Sən azadsan, əziz ŞUŞA. Biz qayıtdıq ...

Xan Şuşaya gəldi. Xan, sən öz kəndində taxtı-rəvan olursan. Sənin ayaq səslərin eşidilir. Havalanır Xanın səsi... Amma, biz artıq Şikəstə oxumayacağıq, Koroğlu Uvertürası Sən taxtında olduğun müddətcə Ulu Murovda, Kirsdə, Məngilanatada səda edəcək...

Biz qaydırıq... Adı ağ olsa da, qara günlər görmüş ağ damımıza qayıdırıq... Nənələrimizin nağıllar danışdığı isti yuvamıza, babalarımızın at çapdığı Cıdır düzünə qayıdırıq... Hər daşında, hər qarışında min-min xatirələrin yatdığı yerlərə qayıdırıq... İrfani-ülamanın şeir məclislərinə qayıdırıq... Çobanın ney çaldığı, qoyun-quzunu yaylağa çıxardığı günlərə qayıdırıq...

Sarı gəlinin "Səni mənə verməzlər" fəryadını, bayrağımızın "Ay-nişanı" ilə almağa gəlmişik... Qırmızı koftalı, yaşıl tumanlı aylı-hilalı bir daha enməmək surəti ilə göylərin bağrına çəkməyə gəlmişik... Ana yurda, müqəddəs diyara - kiçik Kəbəmizə gəlmişik !

Sənə açdığımız hər atəş üçün bizi bağışla! Sən də bilirsən ki, hər atəş, qəlbi yaralı lalə kimi qəlbimizi odlayır. Bağışla bizi! Sənin üçün səni incitməyə məcburuq. Səni dirçəldəcəyik, yenidən quracağıq... Əzəmətli günlərinə geri qayıdacaqsan.

"Əziz Şuşa, sən Azadsan!
Əziz Şuşa, biz qayıtmışıq".
Qarabağ Azərbaycandır !!!

**Cəbrayıl Həsənzadə.**

***Baş hüquqşünas, "Hüquq fənləri" kafedrasının müəllimi***

# İKİ ƏSRLİK MÜNAQİŞƏNİN 44 GÜNLÜK ZƏFƏR SALNAMƏSİ

44 günlük zəfər yürüşü... Bu adi yürüş deyildi. Bu yürüş tarixşünaslığımızın iki əsrlik münaqişəli dövrünə son qoyan zəfər idi. Bu yürüş tarixin axarına yeni nizam verən zəfər idi. Bu zəfər iki yüz ildə itirilən torpaqların geri qayıdış zəfəri idi. Bu qayıdış haqqın geri qayıdışı idi. Bu qayıdış Ali Baş Komandanın müdrik siyasətinin, uzaqgörənliyinin nəticəsi idi. Bu qələbə ölkə rəhbərinin qurduğu müzəffər Azərbaycan ordusunun qələbəsi idi. Düşmən tapdağında olan torpağımızın hər qarışının şəhid qanı və canı ilə qayıdışının qələbəsi idi. Xalqın həmrəyliyinin, milli birliyinin, ölkə rəhbərinə inam və güvəninin qələbəsi idi. Bu tarixi qələbəni isə xalqımız başqalarının yardımı, güclü dövlətlərin siyasəti ilə deyil, öz müdrik rəhbərinin başçılığı, Azərbaycan əsgərinin şücaəti, qəhrəmanlığı, şəhidinin qanı ilə qazandı. Azərbaycan əsgərinin şücaətini Ukraynalı hərbi analtik belə yazırdı: ...Azərbaycan əsgəri Şuşanı piyada döyüşləri ilə, daşına bilən ağır sursatlarla, duman içində, göz-gözü görməyən çətin hava şəraitində dağlardan keçərək qaytardı. Azərbaycan əsgəri Şuşanı PUA-larsız, tanksız, artilleriyasız işğaldan azad etdi. ... Bu, Vətənə qayıdış, ədalətli tarixə qayıdış idi. Belə döyüş, dövlət, Vətən sevgisi görən olubmu?!. Sualı cavablandırmaq, nə isə demək, danışmaq çox çətindir. Şəhidi çiyinlərində, yaralını qollarında, döyüşə-döyüşə, qan-tər içində nəfəsini belə dərmədən qalxırdı üzü dağ yuxarı Şuşaya doğru Azərbaycan əsgəri..." Bəli, Şuşa Qələbəsi, Şuşa uğuru müzəffər Azərbaycan Ordusunun bütün güc-qüdrətinin, dünyanın ən müasir orduları sırasında yer aldığının, əsgər və zabitlərimizin igid, cəsur və qorxmazlığının, peşə



bacarığı və ruh yüksəkliyinin təsdiqi idi. Şuşa Qələbəsi, Şuşa Uğuru Azərbaycan dövlətinin siyasi, iqtisadi və hərbi qüdrətinin bir daha bütün dünyaya nümayişi idi. O nümayiş ki, işğalçı ölkənin 30 illik dönəmdə cəbhə xəttində qurduğu, yaratdığı, qazıq-qazıq edib möhkəmlətdikləri istehkamları dağıdaraq status-kvonu tarixin zibilliklərinə gömməsi idi.

Bununla Prezident cənab İlham Əliyev ölkəmizin milli dövlətçilik tarixinin ən qüdrətli mərhələsinə yüksəlməsi reallığını sadəcə sözdə deyil, əməldə göstərdi. Azərbaycan Ordusunun işğalçı üzərində qazandığı zəfər də bu reallıqları bütün aləmə bəyan etdi.

Beləliklə, ölkəmiz tarixi reallığı özünə qaytardı, tarixin haqlı axarına yeni başlanğıc verdi. Bizlərin də bəlkə heç fərqinə varmadığımız, amma gələcək nəsillərin keçmişə boylananda hər zaman böyük qürur hissi ilə xatırlayacağı günlərin canlı şahidinə çevirdi.

44 günlük Vətən müharibəsi və 30 ilə yaxın dövr ərzində dırnağına kimi silahlanmış, çoxmərtəbəli yeraltı istehkamlar qurmuş və yalnız müharibə ruhunda böyümüş düşmən üzərində qələbə bütün dünyaya bizim milli həmrəyliyimizi nümayiş etdirdi, özümüzü də inandırdı ki, milli məsələlərdə, torpaqlarımızın azadlığı uğrunda bir yumruq kimi birləşə bilərik.

Bu tarixi qələbənin mənbəyi xalqımızın həmrəyliyi, Cənab Ali Baş Komandanın ətrafında sıx birləşən vətəndaşlarımızın inamı və Azərbaycan ordusunun məğlubedilməzliyi, qətiyyəti oldu. Dəmir yumruğu ilə tarixi və ilahi ədaləti bərpa edən xalqımızın sərkərdəsi əsrlərə, nəsillərə örnək və dastan olacaq qətiyyəti və hünəri ilə Azərbaycan tarixinin keçmişinə və gələcəyinə adını qızıl hərflərlə həkk etdirdi.

Tarixi qələbə milli birliyimizi, birliyimizi, gücümüzü və əzmimizi bütün dünyaya nümayiş etdirdi. Artıq dünya, liderimiz və xalqımız arasında necə möhkəm və sarsılmaz inamın olduğunun şahidi oldu! Həmçinin, bu tarixi qələbə Naxçıvan Muxtar Respublikasını Azərbaycanın əsas hissəsi olan quru yollarla birləşdirilməsini təmin etdi. O quru yol ki, bərpası ilə ermənilərin ağrı-acısını əsrlərlə unutdurmayacaq.

Bəli, Ermənistan artıq həm döyüşdə həm də siyasət meydanında məğlub tərəfdir. Nə qədər çox aqresiya sərgiləsə, bir o qədər çox uçuruma yuvarlanacaq. Necə ki, hazırda İrəvanda siyasi proseslər idarəolunmaz hala çatıb, ictimai-siyasi böhran dərinləşib. Ermənistan iqtisadi uçurumla üz-üzə dayanıb.

Azərbaycan isə tarixi ədaləti, beynəlxalq hüququ bərpa edərək qələbənin sevincini yaşayır. O qələbəni ki, milli birliyi, həmrəyliyi və əsgərinin döyüş zəfəri, qanı və canı ilə qazandı.

Bir sözlə biz ədalət mübarizəmizi, tarixi və ilahi ədalət uğrunda savaşımızı Ali Baş Komandanımızın "Biz o torpaqlara qayıdacağıq" vədinə sadiq qalaraq qazandıq. Zəfər salnaməmiz, qələbəmiz mübarək olsun!

**Arzu Abdullayev**

***"Beynəlxalq münasibətlər" kafedrasının baş müəllimi***

## *“Ədaləti ədalətsizliklə bərpa etmək olmaz”*

*Azərbaycan xalqının ümummilli lideri HEYDƏR ƏLİYEV*

***Ruhunuz şad olsun ULU Öndər! Ədalətli haqq savaşımızla qələbə qazandıq. Artıq bizə miras olaraq qoyub getdiyiniz və xalqımızı, dövlətimizi əminliklə əllərinə əmanət etdiyiniz Ali Baş Komandanımız Sizin arzunuzu reallaşdırdı. Azərbaycan dövlətinin hər zaman inandığınız qüdrətini bərpa etdi, tarixi gerçəkliyimizi özümüzə qaytardı. Saxta tarixlə tarixlərini “bəzəyənlərin” dərsini verdi. “Mən fəxr edirəm ki, mən azərbaycanlıyam” şüarınız bu gün hər kəsin həyat amalı, yaşam idealına çevrildi. Sözlərinizdən ilhamlanan cəsur oğullarımız vətənin müdafiəsinə göz qırpmadan hazır oldular. Doğma torpağımızın hər bir qarış torpağını böyük mətinliklə düşməndən geri aldılar, düşmənə öz gücümüzü göstərdilər. Gücümüz demişkən burada hər iki güc-maddi və mənəvi gücdən söhbət gedir. Ali Baş Komandanın yürütdüyü məqsədyönlü siyasət, ordu quruculuğu prosesi qələbəmizin ən əsas faktoruna çevrildi. Xalqdan güc alan Prezident İlham Əliyev mənəvi qələbəmizin timsalına çevrildi.***

# ÖLÜMÜ İLƏ ÖLÜMSÜZLÜK QAZANAN ƏBƏDİ QƏHRƏMANLARIMIZ

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev: "İkinci Qarabağ müharibəsi tarixdə Azərbaycanın şanlı qələbəsi kimi qalacaqdır. Bu qələbənin qazanılmasında bütün xalqımız birlik, həmrəylik göstərmişdir... Biz bu müharibəni şəhidlərimizin canı-qanı bahasına, hərbçilərimizin rəşadəti hesabına, dövlətimizin siyasəti hesabına qazanmışıq".

**Bütün müharibələr ilk öncə insanın zehnində qazanılır. (Janna Dark)**

Tanrının haqq tərəzisi gec-tez öz yerini tapacaqdı. Düşmənin (həm də mənfur və iblis düşmənin) əməlləri cəzasız qalmayacaqdı. Əsgərlərimiz döyüşə qazanmaq üçün getdilər. Çünki onların düşüncələrində, fikirlərində ancaq QƏLƏBƏ və yenə də QƏLƏBƏ idi!!! Bu idi bizə ruh yüksəkliyi yaşadan! Bu idi əsgərimizi, zabitimizi döyüşün ən qızğın çağında belə ölümün gözünə dik baxdıran! Bu idi ən çətin məqamda belə əlindəki gücə, içindəki qəzəb hissinə sığınaraq düşmənin üzərinə qorxmadan, məğrurcasına addımladan! Bax, bu idi bizi qələbəyə yaxınlaşdıran, zəfər tarixini yazdıran!!!

**Vətən uğrunda ölüm qədər dadlı və şərəfli ölüm varmı?! (Qədim Roma şairi)**

Müharibə bitdi və əlbəttə ki, həm haqlı, həm də güclünün qələbəsi ilə. Biz müharibəyə başlamadan öncə qarşımızdakı düşməni tanıyırdıq, onun xislətini də çox gözəl anlayırdıq. Çox gözəl bilirdik ki, mənfur, hiyləgər, iblis xislətli bir düşmənlə vuruşuruq. Düşmən də olsa gərək qarşındakı kişi olsun, mərd olsun! Amma, çox təəssüflər olsun ki, bizim düşmənimiz bunlardan nəinki uzaqdır, hətta mən deyərdim ki, lap bixəbərdir. Döyüş əzmli xalqımız, mübariz igidlərimiz isə qarşılarındakı düşməni tanıyaraq mərdliklə, qəhrəmanlıqla vuruşdular. Öz canlarını vətən yolunda sipər, qanlarını vətən uğrunda halal etdilər.

**Vətənpərvərlik şəhidlərin alnında işıq saçan məşəl kimidir. (Eduard Martin)**

Şəhidlik insanın Allaha, Vətənə, xalqına, millətinə olan sevgisinin həyat-ölüm astanasında qeyd-şərtsiz şəhadət tapdığı ali məqamdır. Şəhidlər Vətən-Allah, xalq-haqq savaşından məğrurluqla çıxıb, bir anın içində milyonların əzizinə, Vətən oğluna çevrilib ölümü ilə də bu torpağı şərəfləndirənlərdir. Buna görə də onlar bizim and yerimiz, qürur mənbəyimizdir! Ona görə qürur mənbəyimizdir ki, bu Vətən sevdalıları, bu Vətən aşiqləri göz qırpmadan, ölümün üzünə dik baxaraq, kəfənlərini əyinlərinə geyinib şüurlu şəkildə, qələbə naminə ölümün ağuşuna atıldılar. Dövlət-ordu-xalq birliyinin nələrə qadir ola biləcəyini, Azərbaycanın hərbi qüdrətini öz qəhrəmanlıqları ilə bütün dünyaya sübut etdilər. Öz cəsarətləri ilə düşmənə göstərdilər ki, Vətən torpağının bir qarışı belə onlar üçün həmişə qiymətlidir. Ata-babalarımızdan bizə miras qalan torpağı qorumaq, onun başı üstünü qara buludlar alanda ölümün gözünə dik baxaraq, həyatını itirməkdən bir an belə qorxmadan döyüşə atılan oğullarımız dünən də olub, bu gün də var və gələcəkdə də olacaq. Mərd, igid oğulları olan xalq isə heç vaxt yada, namərdə baş əymir, əksinə daim qələbələr qazanır.

**Döyüşdə müvəffəqiyyət qazanmaq üçün mənəvi gücün rolu dördə üç, maddi gücün rolu isə dörddə birdir. (Napoleon Bonapart)**

Ali Baş Komandanın döyüş əmri ilə başladığımız müharibənin qələbə ilə nəticələnəcəyi şəksiz idi. Çünki Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev yaratdığı ordu quruculuğuna, xalqın döyüş əzminə bələd idi. O qəti şəkildə əmin idi ki, malik olduğumuz ordu və bu orduda döyüşən hərbçilər bizə qələbə sevincini yaşadacaq. Ali Baş Komandanın hərbçilərlə mütəmadi görüşü, xalqla hər zaman birgə olması bu qətiyyətli qərarın verilməsində müstəsna əhəmiyyətə malik oldu. Bəlkə də heç kəs inanmazdı ki, bizim xalqımız bu qədər mübariz, bu qədər qorxmaz və cəsur xalqdır. Biz müharibənin 44 günündə bunu bütün dünyaya nümayiş etdirdik. Hər şeydən öncə birgəliyimizi, həmrəyliyimizi bayram etdik, xalqla-ordu birliyinin təntənəsinə sevindik. Bizim mənəvi birliyimiz, qələbəyə inam hissimiz, döyüşkən əhval-ruhiyyəmiz, haqq-ədalət savaşımız döyüşdə uğurumuzu şərtləndirdi.

**Dənizçinin cəsarəti fırtınada, əsgərin cəsarəti müharibədə, xalqın cəsarəti isə ağır sınaq günlərində bəlli olur. (Tomas Vudro Vilson)**

Bizim əsgərlərimiz nəinki cəsarət göstərdilər, hətta mən deyərdim ki, onlar cəsarətin özü, qəhrəmanlığın ən yüksək nümunəsi, ən ali göstəricisi oldular, xalqımızın ən ağır günündə onlara inam verdilər. Qələbə yaşatdılar gözü yolda qalan, illərdir vətən həsrəti çəkən Azərbaycan xalqına. “Artıq mən qaçqın deyiləm” deyərək sevincini az qala bütün dünyaya hayqırmaq istəyən hər bir məcburi köçkünü qaçqın statusundan azad etdilər. Xalqımız ən ağır günlərdə belə yumruq kimi birləşməyi bacardı. Xalqımız vətənsevər övladları ilə fəxr etdi, qürurlandı və zəfər gününü bayram etdi. Cəsarətli igidlərimiz ölümün gözünə dik baxaraq şəhidlik məqamına çatdılar. Neçə-neçə igid qəhrəmanımız bu yolda ya şəhid, ya da qazi oldular. Mənfur düşmən Azərbaycan xalqının qüdrətinə, cəsarətinə, yenilməzliyinə inanmadı. Dünya dövlətləri xalqla-ordu birliyinə, Ali Baş Komandanımıza olan sonsuz sevgimizə heyrət etdilər.

**Ölməz o adamdır ki, özündən sonra vətən üçün böyük və ölməz əməlləri qalır. (Lyuk de Klapye Vovenarq)**

Əsgərlərimiz döyüşə gedəndə xalqımızın başına gətirilən faciələri dönə-dönə xatırlayaraq getdilər. Xocalı faciəsində bizə yaşadılanları yaddaşlarında həkk edərək döyüşə yollandılar. Silahlanan hər bir əsgərimiz döyüşə qələbə əzmi ilə bərabər düşmənə qatı nifrət ruhunda gedirdi. İgidlərimiz şəhid olan qardaşlarının qisas yanğısı ilə döyüşə atılırdı. Neçə-neçə mərd oğullarımızın yarım qalmış arzularını reallaşdırmaq üçün səfərbər olurdular. Şəhid analarının, bacılarının, atasız qalmış şəhid övladlarının ah-nalələrini dərindən duyub gedirdilər döyüşlərə. Hər dəfə öldürdükləri erməni leşlərinin çoxluğunu isə sanki xalqımızın başına gətirdikləri faciələrin mükafatı hesab edirdilər.

**Müharibə qadınlara və kişilərə eyni cür təsir göstərir, Lakin bəzilərinin qanını, bəzilərinin göz yaşını alır. (Uilyam Meykpis Tekkerey)**

Şükürlər olsun ki, müharibə qələbəmiz ilə başa çatdı. Amma, əlbəttə ki, qazanılan zəfərdə, alınan hər bir qarış torpaq parçasında neçə-neçə şəhid qanı var, neçə-neçə ana, bacı göz yaşı, ata naləsi, övlad boynubüküklüyü var. Şəhid olan hər igidimizin ürək sızladan hekayələrini (gerçək həyatdan ilhamlanan) oxuduqca heyrətlənməyə bilmirsən. Ey əziz xalqım, sən nə qədər qəhrəman oğullar yetirmisən! Vətənin dar günündə bizə qələbə müjdəsini yaşada bilən qəhrəman oğullarımız, rahat yatın! Bilin ki, uğrunda qanlar tökdüyünüz bu torpaq sizi unutmayacaq. Çünki illərdir iblislərin ayağı altında tapdağ olan yurdumuz sanki çirkabdan təmizlənib, ruhu rahatlıq tapıb. Anaların göz yaşları, ataların qəlbində gizlədib ətrafındakı insanlar rahat olsun deyə içində boğub saxladıqları ürək parçalayan kədərləri, qardaş-bacıların çiyinlərində daşıdıqları tabutunuz, övladların atam hanı - deyə hıçqırıqları getməz gözümüzdən. Sizlər, bizim əsl qəhrəmanlıq salnaməmizsiniz!!! Müharibə edən hər bir ölkənin itkiləri qaçılmazdır. Amma, bir şeylə təsəlli veririk özümüzə. Şəhid oğullarımızın qisası alındı. İşğaldan azad edilən hər bir yurd yerində dalğalanan bayrağımız artıq şəhid ruhlarını salamlayır, azad edilmiş torpaqlarda dalğalanmaqla sanki qürur duyur. Qanını doğma torpağına qorxmadan, igidcəsinə halal edən hər bir Azərbaycan əsgərinə illərdir yağı düşmən əlində tapdağa çevrilən qədim el-obaya təmiz nəfəs gətirdiklərinə görə minnətdarlıq edir, Ulu Bayrağım! Dalğalan ey şanlı, vüqarlı bayraq, neçə illərin həsrətini çıxart!

**Mərd o adamdır ki, ölümü qorxmadan qarşılayır. (Aristotel)**

Vətən uğrunda ölüm həyatın davamıdır deyiblər. Bəli, igid əsgərlərimiz qorxmadan, cəsur halda ölümü sanki ikinci həyat bilib döyüşə atılırdılar. Bizim əsgərlərimiz mərdliyin simvoluna çevrildilər. Hər döyüşdə ayrı bir qəhrəmanlıq tarixi yazıldı, hər kənd, qəsəbə və rayonun azad edilməsində böyük şücaət göstərdi igidlik simvollarımız. Öz mərdlikləri ilə tariximizdə silinməz izlər qoydular, qəlbimizdə sevinc hisslərini alovlandırdılar, neçə illərdir nisgilə çevrilmiş qədim yurd yerlərinə yeni nəfəs, sevinc gətirdilər. Bəli, ölümün gözünə dik baxaraq döyüşə atıldılar.

**Qəhrəmanlıq qəhrəmanla ölmür, onun ömrü uzun olur. (Evripid)**

Qəhrəmanlar ölmür, onların yazdıqları qəhrəmanlıq tarixi dünya durduqca yaşayacaq. Azərbaycan var olduqca onların igidlikləri qələmə alınacaq. Hər kəs öz bacardığı qədər şəhidlərimizin xatirəsinə öz töhvəsini verəcək. Mən əminəm ki, bizim vətən uğrunda gözünü belə qırpmadan ölümə sinə gərən şəhidlərimizi unutmağa haqqımız olmadığı kimi, onların qəhrəmanlığını gələcək nəsillərimizə çatdırmağımız kimi ən ali bir missiyamız da var. Düşmənimizin canına vahimə salan igidlərimiz haqda hələ çox danışılacaq, hətta dünyaya belə səs salan qəhrəman oğullarımız barədə hələ çox sözlər deyiləcək. Dəyişməyən isə bir şey olacaq. Ruhunuz şad olsun rəşadətli oğullarımız, Siz elə bir tarix yazdınız ki, Azərbaycanı sevən hər kəs ona fəxrlə, qürurla, düşmənlərimiz isə heyrətlə, həsədlə baxdı.

**Məsləhətin yolu uzun, örnəyin yolu isə qısadır. (Mövlana Cəlaləddin Rumi)**

Bu gün tariximizə sahib çıxmağı, tarixi gələcəyə köçürməyi və elə tarix yazan igidlərimizə dəyər verməyi biz Ali Baş Komandanımızdan öyrənirik. Cənab Prezidentimiz hər kəsə ideal nümunə olacaq davranış göstərməklə hər bir şəhid ailəsinə ayrıca həssaslıqla yanaşır, yaralı hərbçilərimizlə dəfələrlə görüşür. Bu gün biz tariximizə sahib çıxmaq üçün məhz Ali Baş Komandanımızı örnək almalıyıq. Prezident İlham Əliyevin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında Sərəncamında Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etmiş, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərmiş, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları “Vətən uğrunda” , “Azərbaycan bayrağı” 1-ci dərəcəli “Vətənə xidmətə görə” 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edildilər. Ölkə başçısının yaralı hərbçilərlə görüşü isə tarixi bir görüş idi: Ali Baş Komandan yaralanan vətən övladları ilə görüşəndə əhval-ruhiyyəsi çox yüksək idi. “Şübhəsiz ki, yaralı oğullarımız sağalıb, normal həyata qayıdacaqlar və ailələrinin yanında olacaqlar. Lakin həmişə yaddaşlarında qalacaq ki, dövlət başçısı onlarla görüşdü, onları dinlədi və qayğılarına qaldı. Eyni zamanda bütün dünyaya bəyan etdi ki, heç bir əsgərin hüquqları tapdalanmayacaq. Əksinə, əsgər və zabitlərimizin arzuları tam təmin ediləcək. Çünki torpaqlarımız uğrunda həlak olan, yaralanan və qalib gələn övladlarımıza qayğı, Azərbaycanın gələcəyinə qayğı kimi qiymətləndirilməlidir”.

Muxtar respublika sakini olaraq mən Naxçıvan Muxtar Respublikasında şəhidləri ehtiramla qarşılayan Ali Məclisin sədri cənab Vasif Talıbovu xüsusilə qeyd etmək istəyirəm. Naxçıvana gətirilərkən hər şəhid övladını yüksək ehtiram və hörmətlə qarşılayan Cənab Sədr biz gənclərə örnək, gələcək nəsillərə ideal davranış təqdim edir. Hətta, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Vətən müharibəsində yaralanan və Naxçıvan Qarnizonunun Hərbi Hospitalında müalicələrini davam etdirən hərbçilərlə də görüşür, onlarla maraqlanır. Bəli, bu gün bizə ideal davranış nümunəsi göstərilir, bizə isə bu nümunədən yararlanmaq və tariximizə sahib çıxmaq qalır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov dekabrın 14-də Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun yaradılması haqqında Fərmanı isə hər birimizi şəhid ailələrinə və döyüşdə yaralanan hərbçilərimizə az da olsa vicdanı borcumuzu yerinə yetirməyə çağırır.

**Sizə pislik etmiş bir düşməni bağışlayın, ancaq ölkənizə və millətinizə zərər verənləri heç vaxt bağışlamayın. (Hz. Əli)**

Bu gün gənc nəslin bir amalı, bir məqsədi var. Döyüşdə düşmənə qan qusduran, ona layiq olduğu cəzanı verən igidləri unutmamaq və gələcək nəsillərə çatdırmaq. Çünki hər kəs düşünməlidir ki, vətənimizin azadlığı yolunda canını qurban vermiş hər bir igid onun oğlu, həyat yoldaşı, ən əzizi və doğmasıdır. Şəhid anasının dərdini özününkü bilən hər kəs düşmənin bizə çəkdirdikləri acını unutmaz və unutmamalıdır!!! Vətənin müdafiəsi uğrunda canından, qanından keçən belə qəhrəmanlarımız, yurdumuzun bütövlüyü naminə canlarından keçməyi özlərinə şərəf bilən igid oğullarımız hər zaman yaddaşlarda yaşayacaqlar. Bu zirvəyə ucalan cəsur, igid əsgərləri, qəhrəmanları hər bir Azərbaycan vətəndaşı tanımalı, onların keçdiyi şərəfli döyüş yolunu bilməlidir. Vətəni qorumaq kimi müqəddəs bir amal uğrunda döyüşə atılan və düşmənə sinə gərən qeyrətli Vətən oğullarını yad etmək, bütün şəhidlərimizin əziz xatirəsinə ehtiramla yanaşmaq, onların adlarını əbədiləşdirmək və ruhlarını şad etmək isə bizim hər birimizin ən müqəddəs vəzifəsi və borcu olmalıdır. Həyatını vətən uğrunda itirən heç vaxt ölməz. Onlar ölməz və əbədi qəhrəmanlarımızdır...

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

# SƏN YALNIZ UNİVERSİTETİN DEYİL, BÜTÜN NAXÇIVANIN FƏXRİSƏN!

Artıq bir neçə ay gözümüzün önündən kino lenti kimi keçdi. Bu film dünyanın heç bir filminə bənzəmədi. Həm bizi ağlatdı, həm də güldürdü. Bu gün isə Naxçıvan Dövlət Universitetində hər kəs sevinc hissləri keçirir. Çünki torpaqlarımız uğrunda gedən II Qarabağ döyüşündə iştirak edən və Naxçıvanımıza geri qayıdan Fəxri Qazıbəyov böyük təntənə ilə qarşılanır. Bax əsgər, bu eşitdiyin, gördüyün alqışlar sənin mərdliyinə, cəsarətinə, əzmkarlığınadır. Bura toplaşan hər kəs öz sevinclərini sənə bu alqışlarla çatdırırlar. Evinə xoş gəldin Əsgər! Təhsil aldığın universitetə xoş gəldin Əsgər! Bax görürsən, universitetdə rektor, müəllim, tələbə, bir sözlə, hər kəs səni qarşılayır. Gördüyün insanların üzlərindəki sevinc, təbəssüm sənə və sənin igidliyinədir. Buraya yığışanların hər biri səninlə ünsiyyət qurmaq, orada yaşananları bir əsgər kimi sənin dilindən eşitmək istəyirlər. Sanki simalarından “Əsgərim məni bağışla”! ifadəsi oxunur. Bağışla, ona görə ki, mən isti evimdə uyuyanda, sən soyuqdan donmuş əlinlə silah tuturdun. Mən yeməyimi vaxtlı-vaxtında yeyəndə, sən heç yemək yeməyə də macal tapmırdın. Mən sevdiklərimlə bir yerdə olanda, sən sevdiklərini gözü yolda qoyarsan deyə, xəyalına belə gətirməkdən qorxurdun...




İşğaldan azad edilmiş torpaqlarımızda üçrəngli bayrağımızı sancmanız böyük zəfərdir. Bu zəfərlə şəhid olan, canını, qanını torpağımıza sipər edən hər bir vətəndaşımızın ruhu şad oldu. Xəritəmiz, ərazi bütövlüyümüz bərpa olundu. Elə bu məqamda Fəxri Qazıbəyovun xəyallara daldığı diqqətimi çəkir. Xəyalına qurban olum Əsgər! Baxışların, gözlərin içərisindən çıxdığın yerin necə alovlu olduğunu göstərir. Bu alov heçvaxt yaddaşınızdan silinməyəcək, gözünüzün önündən getməyəcək, düşmənə qarşı intiqam hissiniz sönməyəcək. Bu gün biz sizlərlə fəxr edirik. Torpağımızın üzərinə tökülən qanlar əbəs yerə getmədi. Biz şəhidlərimizin, qazilərimizin və Fəxri Qazıbəyov kimi müharibədə iştirak edən hər kəsin sayəsində azadlığımıza qovuşduq. Yüksəklərə qaldırdığınız bu şanlı bayrağımız özündə yenidən nəfəs tapdı. Bu nəfəsi Vətənimin sən və sənin kimi neçə-neçə qəhrəmanlarına borcluyuq. Bu bayraq sizinlə qürur duydu. Bu bayraq sizinlə bir daha öz şanını, qüdrətini, əzəmətini yaşadı. “Bir kərə yüksələn bayraq, bir daha enməz!” şüarını bütün dünyaya bir daha sübut etdiniz. Öz canınızla, qanınızla, mərdliyinizlə...Bayrağımızı bir daha enməmək üzrə yüksəklərə qaldırdınız. Yaşa, Vətənimin igid oğulları!

**Telli Mustafayeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***

# BİZ TARİXİ ƏDALƏTİ BƏRPA ETDİK!

## İSTİQLALIMIN ƏBƏDİYYƏT SANCAĞI

Bir qadının qüruru adı, bir kişinin qüruru şərəfi olduğu kimi, bir xalqın, bir millətin də qürur yeri onun bayrağıdır. Azərbaycan xalqı üçrəngli bayrağına 70 il həsrət qaldı. Kimi gizlində sevib oxşadı onun rənglərini, kimi qəlbində dalğalandırdı, kimi də bayrağı müstəqil Azərbaycan Respublikasının səmalarında görmədən dünyadan köçdü. O bayraq ki, hələ sovet hakimiyyətinin mövcud olduğu bir vaxtda ulu öndər Heydər Əliyevin siyasi iradəsi və qətiyyəti sayəsində ilk dəfə Naxçıvanda qaldırılmışdı. Dalğasındakı səs azan səsi qədər müqəddəsdir üç rəngdən ibarət göyqurşağımın.

Dövlət bayrağımız, milli dəyərimiz. Elə bir dəyər ki, bizə milli qürur, mənlik, ləyaqət, güc, qüdrət verir. Bu gün dünyanın, demək olar, əsas ölkələri ilə əlaqə və münasibətdə olan, beynəlxalq təşkilatlarda təmsil olunan dövlətimiz öz bayrağı ilə tanınır. Keçirilən müxtəlif tədbirlərdə, beynəlxalq yarışlarda qaldırılan Dövlət bayrağımız həm də qələbə və zəfər üfüqlərini özündə təcəlla etdirir. Dikilən, dalğalanan hər ölkədə bayrağımız siyasi qələbəmizin təntənəsi kimi hər birimizə qürur verir, bütün dünya azərbaycanlılarının həmrəylik, birlik rəmzi kimi dalğalanır.

Ulu öndər əmanətidir bu bayraq. Şeir sözü, şair ilhamıdır bu ülvi varlıq. Mənliyimiz, kimliyimiz, sən ey şəhidimin son örpəyi bayrağım! Bir canımız deyil, min canımız olsa da belə, sənin uğrunda fədadır. Cansa can, qansa qan, yetər ki, sən dalğalan. Sən dalğalan ki, ürəyimizdə illərdir alovlanan Vətən həsrəti dalğanın küləyi ilə rahatlıq tapsın. Dalğalan ki, Mübarizin ruhu rahat olsun. Sən Poladın anasına oğul olan, sən Yaşarın Narininə ata olan müqəddəssən, Azərbaycan Bayrağı. Bu gün sənin dalğandakı əzəmətdən qüvvət alır ürəyində Vətən eşqi aşıbdaşan vətəndaşlar. Zülmətlərin nur çələngi, işıl-işıl bayrağım.

Bu gün mənfur düşmənə layiqli cavab verən Azərbaycan əsgəri, könüllü cəbhəyə yola düşən Azərbaycan gənci, arxa cəbhədə ordusuna daim dəstək nümayiş etdirən Azərbaycan xalqı "Bayraq sevgisi" ilə silahlanıb. Budur bizim əsgərləri qələbədən-qələbəyə aparan. Ürəklərində daşıdıqları bayrağı öz əlləri ilə sancırlar öz doğma torpaqlarına. Bu, Azərbaycan əsgərinin haqqıdır. Haqq yolunda irəliləyən əsgər heç zaman məğlub olmaz.

Sən ey müqəddəs varlığım! Sən ucal deyə neçə-neçə oğullar canından keçdi. O oğulların canı və qanı bahasına bu gün Füzulidə, Cəbrayılda, Qubadlıda, Zəngilanda, Hadrutda göylərə ucalmısan. Otuz ildir rənglərin həsrət qalan Suqovşana qovuşmusan. Otuz ildir sənə tərəf boynu bükük şəkildə boylanan Murovdağdan sədaların ucalır.

Sənsən Azadlıq eşqim, sənsən "Hürr", – deyəcəyəm.
Ən son nəfəsimdə də sənə şeir deyəcəyəm.
Şuşada sən qonduğun daşa pir deyəcəyəm.
Çəkəcəyəm gözümə kölgən düşən torpağı,
Azərbaycan bayrağı!

Bəli, Şuşada sən qonduğun daşa pir deyib, sən ucaldığın torpağa iman yerim kimi baxacağam. Çox yaxındadır o gün. Səni Zəngilanda ucaldan Azərbaycan ordusu, Qubadlıda qaldıran Azərbaycan əsgəri Şuşaya da sancdı. Çünki bizim ruhumuzda, canımızda, könlümüzdə Vətən sevdası, bayraq eşqi göy boydadı. Çünki bizim Ali Baş Komandanımızın tək amalı üçrəngli sevdamızı Qarabağın, Şuşanın başı üstə ucaltmaqdı.

Asın, eyvanlardan bir bayraq asın,
Bu gün "Azərbaycan" deyin ürəkdən.
Şanlı bayrağımız hey dalğalansın,
O da qüvvə alsın əsən küləkdən.

Bu gün hamı bir ürəkdən "Vətən", –deyir. Bu gün hamı eyvanından Şəhidimin bükülərək öz ata ocağına, öz ana qucağına geri döndüyü, əsgərimin sarılaraq döyüşlərə yollandığı o üçrəngli bayrağı asır. Ürəyində oğul dərdi dağa dönən anaların əllərinə sığal çəkən o müqəddəs bayrağı asır hamı eyvanından. Bu üçrəngli xoşbəxtlik çələngi bizim azadlığımızdır, müstəqilliyimizdir. Harda əcdadımızın ayaq izi varsa, orada yüksəlir. Bu bayrağın ucaldığı hər zərrə torpaq bizə Vətənlə tən yox, elə Vətəndir.

Şəhidimin canından, qanından yoğrulanım,
Ey üçrəngli çələngim, ey gözümün işığı.
Sən dalğalan, sən ucal, bu bizə dünyalardı,
Yurdumun göylərinin ən ülvi yaraşığı.

Bayraq böyük qüvvədir. Bayraq elə bir qüdrətdir ki, əlində ən qorxunc bir silah tutan məğlubedilməz əsgər də ona baş əyir. Bayraq elə bir cəsarətdir ki, əliboş 20 yanvar şəhidlərimizi bir an belə tərəddüd etmədən xalqın azadlıq arzusunu boğmaq və məhv etmək istəyən zirehli tankların altına apardı. Bayraq elə bir şərəfdir ki, xalqların ən böyük şərəfə layiq gördüyü insanlar onun qarşısında diz çöküb öz xalqına sədaqət andı içirlər. Bayraq elə bir müqəddəs varlıqdır ki, onun altında ölmək belə şərəflidir. Bu gün Azərbaycan əsgəri həmin şərəfli missiyanı yerinə yetirir. Qalib əsgər bayrağımızı işğaldan azad olunmuş Azərbaycan torpaqlarına sancaraq onun qarşısında zəfər salamı verir. Zəfərimiz mübarəkdir!...

**Qızbəsti Sultan**
***Jurnalistika ixtisası üzrə III kurs tələbəsi***

# HEÇ VAXT ORADA OLMASAM DA, HƏMİŞƏ QƏLBİMDƏ OLAN QARABAĞIM

Bu xəbəri eşitdiyim anın sevincinə 18 ilimin heç bir saniyəsində rast gəlməmişdim. Qarabağ daim bizim canımızın bir parçası olmuş, hər günümüzdə onu yad etmiş, qayıdışını böyük kədər və həsrət içində gözləmişdik. Lakin etiraf edim ki, bəzən içimdə inamsızlıq hissi yaranmırdı da deyildi. Hətta bəzən kin, nifrət məni elə boğurdu ki, səbrimi cilovlaya bilmirdim. "Axı niyə öz torpaqlarımızı geri ala bilmirik???!!!"-deyərək öz-özümə əsəbiləşdiyim, deyindiyim də az olmamışdır. Bu fikirlər düşüncəmə hər gələndə yeganə bir təsəlli yolum da var idi, həmin an tariximizin səhifələrini bir-bir ağlımdan keçirər, təskinlik tapardım. Sasanilərin tərkibində olduğumuz dövrdən Xilafət dövrünədək, xanlıqlar dövründən AXC-yə, Türkmənçay müqaviləsindən Ulu Öndər Heydər Əliyevin dövrünə qədər ağlımdan bir film kimi keçərdi. Cavanşir kimi bir igid, əsrlərlə xilafətin tərkibində qalsaq da Babək kimi bir qəhrəmanın xilafəti sarsıtması, Türkənmənçayla parçalanmasından sonra möhtəşəm dönüşlə bu günümüzə danılmaz töhfələr verməsi və s. mənə görə bunlar səbrin təcəllisi kimi görünürdü. Həm də ki, bir Türk məğlub edilməzdi axı, kökü Göytürklərdən, bozqurdlardan gələn bir insan olaraq da bu məğlubiyyəti necə qəbul edə bilərdim ki? Bəzən bu coşğunu içimə sığdıra bilmir onları misralara da tökürdüm:

Mən Türkün oğluyam, Türkdən doğmuşam,
Bəli, oddan törəyən bu yurddur mənim.
Turana səs salıb, Bozqurd olmuşam,
Ulu əcdadlarım da Bozqurddur mənim.

İntiqam eşqidir damarlarımda,
Yüz erməni boğsam hirsim soyumaz!
Düşmənlər yatırsa Qarabağımda,
Rahat yuxularım halalım olmaz!

Əlbəttə, mən yanılmamışdım da, illər boyu düşüncələrimdə yaşadığım, yaşatdığım bu qələbəni eşidəndə buna bir daha əmin oldum. İlham Əliyev-bu böyük Sərkərdəyə olan rəğbətim, inamım artıq əvvəl xatırladığım bir çox şəxsiyyətlərdən qatqat çox idi. Bilmirəm bəlkə də görüb yaşadığım, əyani şahidi olduğum üçün belə hiss edirdim, amma içimdə o qədər fərəh, o şəxsiyyətə qarşı o qədər hörmət yaranıb ki, bunu sözlərlə ifadə etmək döyüşdən belə çətin gəlir mənə. Uğurlu siyasət, möhtəşəm taktika və illərin səbrinin artıq bəhrəsini verməsi, Azərbaycanın dünyada öz sözünü yeritməsi elə belə hadisə deyildi. Tarixlər boyu igidlər yetişdirən ölkə öz varlığının aliliyini bir daha sübut etmişdi. Cənab İlham Əliyev, Hikmət Hacıyev və igid oğullarımızın duruşları belə yeri yerindən oynadıb, dünyanı lərzəyə salarkən bu mənzərəni izləməyin özü belə insanda fəxarət hissi yaradırdı. Düzü, bu müharibədə mən çox məyusluq hissi də yaşadım, bu yaşıma qədər içimdəki hissimə bu döyüşdə bir də can vermişdim, ürəyim elə çırpnırdı ki, mən də silah tutum, mən də meydana çıxım, bütün mərdliyimlə düşmənin qarşısında duraraq tarix səhifələrindən Tomrisləri, Nüşabələri, Salatınları çıxarıb birdə yaşayım deyə. Heç olmasa bir ermənin də o murdar canını mən alım. Təəssüflər olsun ki, arzuma çata bilmədim, bu döyüşdə igidlərimizin yanında yalnız dualarımla ola bildim və bu ömrüm boyu sağalsa belə izi qalan, hər toxunuşda yeri göynəyən yaram olacaq. Yenə də bu gün bütün şərəfimlə deyirəm ki, mən hər zaman Vətənim, xalqım üçün hazır duran bir Əsgərəm! Təbii ki, bu qələbədə şəhid adıyla ən yüksək məqamlara çox ruhlar ucaldı. Geridə çox canlar yandı, amma ən dəyərli insanlar arzu edərlər şəhid olmağı və elə də ən dəyərli insanlara nəsib olar şəhidlik zirvəsi. Onlar xoşbəxtdir, arzularına çatmış, ruhları şaddır. Bizlə birgə bu qələbə sevincini yaşamış, qürur duyurlar. Biz də onlarla və onların ailəsilə, ən əsas da bağrına daş basaraq "Vətən sağolsun!" deyib öz əlləriylə övladlarını səngərlərə yola salan analarla qürur duyuruq. Onlar da müqəddəsdir, onlar da qəlbimizdə daim yaşayacaqlar.



Bir oğul veribsən Vətən naminə,
Bilirəm, qəlbində övlad yarası.
Başını dimdik tut qəti üzülmə,
Sən də müqəddəssən, Şəhid Anası!

Bəli bu fədakar analarn, fədakar oğulları verdi bu sevinci bizə. Mənsə bu sevinci sətirlərə sığdırmağa çalışdım. İçimə sığmayan sevincimi sətirlərə də sığdıra bilməzkən niyəsə ağlıma Şuşanın hisləri gəldi. Düşündüm ki, görəsən, qayıdışımızı biləndə onun da mənim kimi gözlərindən sellər axıbmı? Kövrəlibmi o da? Fəxr edibmi oğullarıyla? Təsvir etmək belə o qədər kövrəltti ki, məni, sizi də oxumaq kövrəldəcəkmi görəsən?

Şuşa oyandı bir səhər qəfil,
Xarıbülbül, boylan görək gələn kimdir?
Bir bax hələ uzaqdakı parıltıya bu da nədir?
Bu xalqımın bayrağıdır, Şuşam mənim.
Yoxdur daha murdar səsi düşmənlərin,
Əllərində bayraqlarla ordum gəlir.
Daha yoxdu izi-tozu ermənənin,
İllər boyu düşmənlərin ayaqları sinəmizə dağlar çəkib,
İndi daha köksümüzə məlhəm gəlir.
Səsi gəlir millətimin, dalğalanıb dəniz kimi,
Səsi gəlir, zəfərlərin ayaq səsi,
Bitdi daha son verdilər bu həsrətə.
Daha şadlıq, daha sevinc olub bizim,
Dalğalanır bayrağımız sinən üstə,
Nəhayət ki, illər sonra, Şuşam mənim.

Bəli, bitdi. Səbr öz nəticəsini vermiş, intiqam alınmışdır. Çox qanlarımız tökülsə də, yerdə qalmamışdır. Daha ruhlar şad, vicdanlar rahatdır. Və artıq "Dünya bilsin!" deyil, "Dünya bilməlidir!" - Qarabağ Azərbaycandır!

**Zibeydə Əlizadə**
***Azərbaycan dili və ədəbiyyat müəllimliyi ixtisası üzrə II kurs tələbəsi***

# AZADLIĞIN ƏLLİ ÇALARI

"Azadlıq və istiqlaliyyət hər bir xalqın milli sərvətidir". Ulu Öndər Heydər Əliyevin dediyi bu fikir azadlığın bir xalq üçün nə qədər əvəzolunmaz olduğunun bariz nümunəsidir. Çünki, azadlıq mücərrəd anlayış deyil. Azadlığın necə şirin, necə böyük bir nemət olduğunu Azərbaycan xalqından daha yaxşı heç kəs anlaya bilməz. Vətən, torpaq uğrunda mübarizə, azadlıq yolunda atılan uğurlu addımlar çox çətin, məşəqqətli, şərəfli həm də müqəddəs missiyadır. Şanlı tariximizə, keçmişimizə dönüb baxdıqda görürük ki, mənfur düşmənimiz Ermənistanın torpaqlarımıza olan çirkin iddiaları lap qədimlərə söykənir.Son 30 ilin qısa təhlili göstərir ki,Azərbaycan xalqı olduqca çətin və mürəkkəb dönəmlərdən keçərək öz müstəqilliyinin ən yüksək mərhələsinə gəlib çatıb. Bəs bu azadlıq, müstəqillik sözlərlə ifadə edəcək qədər asanmı əldə olunub?! Heç düşünmədən bu suala "Xeyr" cavabını vermək olur. Çünki, azadlıq verilmir, alınır! Can bahasına, qan bahasına alınır.

90- cı illərdə silah-sursat və hərbi baxımdan zəif olan Azərbaycan açıq-aşkar Ermənİ işğalçılığı ilə üz-üzə qaldı. Belə çətin bir zamanda xalq Heydər Əliyevə pənah gətirdi. Dövrün görkəmli ziyalıları, vətənpərvər xalq və xalqına dərin məhəbbət bəsləyən Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1992 ci il noyabrın 21-də Naxçıvanda "Yeni Azərbaycan Partiyasını" yaratdılar. Partiyanın yaradılması ilə xalqımız gələcəkdəki azadlığın ilkin hərarətini canlarında hiss etdi. Düzdür, erməni daşnaklarının torpaq iddiası dayanmadan daha da çirkin bir şəkildə 1992-ci ildən başlayaraq bu günə qədər günahsız xalqımızın öldürülməsi ilə nəticələndi. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə 366 -cı motoatıcı diviziyanın köməyi ilə ermənilər Xocalıda analoqu olmayan soyqırım törətdilər. On minlərlə soydaşlarımız öz ata-baba yurdlarından didərgin düşdü. Bu uğursuzluqlara baxmayaraq xalqımız heç bir zaman ümidini itirmədi. Çünki azərbaycan xalqı yaxşı bilirdi ki, bizim yolumuz haqq yoludur, millət yoludur, azadlıq yoludur, ədalət yoludur. Böyüklərimizdən belə eşitmişəmki, "Böyük savaşları qazanmaq üçün kiçik mübarizələrdə məğlub olmaq lazımdır". Budur, deyilənlər həqiqətə qovuşdu. 44 günlük müharibə Azərbaycanın şanlı qələbəsi ilə yekunlaşdı. Elə bir qələbə ki, hələ 100 il də dillərdə deyiləcək.

Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi və uğurlu siyasətilə işğal altında olan torpaqlarımız azadlığa qovuşdu. Bir zamanlar yanıq dildə eşitdiyimiz "Qarabağ şikəstəsi" artıq xanəndələrin dilində şən avazda ifa olunacaq. Bir zamanlar həsrətində olduğumuz Cıdır düzü, Şuşa qalası, Gövhərağa məscidi, Topxana meşəsini artıq qarış-qarış gəzib illərin həsrətini çıxaracağıq. Gözün aydın olsun, Azərbaycan xalqı! Gözün aydın olsun, Qarabağ! Gözün aydın olsun, əzəli, əbədi yurdum! Başını dik tut, Şəhid anası! Hər zaman oğlunla öyün, Şəhid atası! Budur azadlıq, budur qələbə. İllərdir həsrətində olduğumuz azadlığımıza zərrə-zərrə, qanla, canla qovuşduq.

Sən mənimsən, mənimsən durduqca bədəndə can.
Yaşa, yaşa, çox yaşa, ey şanlı Azərbaycan!

**Məcid Əkbərov**
***"Jurnalistika" ixtisası üzrə II kurs tələbəsi***

# BİZ ZƏFƏR ÇALDIQ!

## BAYRAĞINI UCA QALDIR, ANA VƏTƏN

**Lirik poema**



Ana Vətən! Sən günəşli ölkə kimi var olsan da yaranışdan,
Başın heç vaxt açılmadı nə borandan, nə şaxtalı qarlı qışdan!..
***
Azərbaycan bir üzüksə, o üzüyün qaşı sənsən, Qarabağım,
Azərbaycan bir bədənsə, o bədənin başı sənsən, Qarabağım,
Azadlığın, enməzliyin əfsanəvi yaşı sənsən, Qarabağım.
Həm kədərli, həm sevincli gözümün də yaşı sənsən, Qarabağım.
Sənsiz mənim ürəyim də para idi, yara idi, Qarabağım,
Sənin belə quru adın dərdlərimə çarə idi, Qarabağım.
İllərdir ki, şeytanlığın, iblisliyin beşiyində dustaq idin,
Sinəmizə çalın-çarpaz çəkdirilən bir dağ idin, Qarabağım.
Nə əlimiz, nə ünümüz yetməyirdi nə bir kəsə, nə də sənə.
Əriyirdik, əriyirdin, sozalırdıq ildən-ilə, gündən-günə.
ATƏT-lərin, matətlərin əlində bir oyuncaqdın illərlə sən,
Qara günün, qara bəxtin əzabını hey çəkirdin günlərlə sən.
Səndən ötrü vurnuxurduq, əzilirdik içimizdə, çölümüzdə,
Səndən ötrü ayaqdaydı oğlumuz da, qızımız da, ...ölümüz də.
Kimlərinsə günahının olmuş idin sapand daşı, qan savaşı,
***
Onunçün də sinən üstə at oynatdı oğrubaşı, quldurbaşı.
Canımızı dişimizə tuta-tuta, sıxa-sıxa dözdük yenə,
Çarən üçün illərdir ki, qitə-qitə, ölkə-ölkə gəzdik yenə,
Açılmayan düyün idi taleyinə düşmənlərin yazan yazı,
Düşünürdük, sənin xilas yolun çəkər bundan sonra qırx il azı...
Əllərimiz üzülmüşdü haqq deyilən, fakt deyilən dərgahdan da,
Ancaq yenə ümidimiz kəsilmirdi Haqq deyilən Allahdan da.
Haqqımızı yeyirdilər gözgörəsi bilə-bilə, qana-qana,
Qovrulurduq içimizdə köz üstündə cızdağımız yana-yana.
Vuruşurduq, döyüşürdük içimizdə özümüzlə, sözümüzlə,
Sənin dustaq taleyinə dözənmirdik qəlbimizlə, gözümüzlə.
Ancaq Zaman inad ilə səbir dedi, dözün dedi bizə bir az,
Bu haqsızlıq, şərəfsizlik ömrü boyu belə getməz, belə qalmaz...
Bu da bəlkə bizim üçün bir imtahan bir yazıymış sınaq üçün,
Dostumuzla düşmənimi ayırd edib seçmək üçün, qınaq üçün...
Qarabağım! Sənin qara bəxtin üçün günahkarıq biz hamımız,
Biz özümüz özümüzə qənim olub qurban dedik canımızı
Özgələrə, gəlmələrə, çörəyi də dizi üstə olan şeytan ölkələrə.
Qonaqladıq, qaraladıq, süfrəmizi paraladıq ac-yalavac alçaqlara.
Qucaq açıb yerləşdirdik şeytanları, iblisləri isti otaq-ocaqlara.
Qanı qanla yumalıykən qanı yuduq su ilə ki, biz insanıq,
***
Allah xoflu, iman xoflu, əli kitab "Quran" xoflu müsəlmanıq.
Bizim kimi millət yox ki, bu dünyada, ağzımızın tikəsin də,
Cibimizin son qəpiyi, sikkəsin də saxlamışıq qonaq üçün,
Dedik əsir-yesirlərə, yazıqlara: "buyur, gəlin, başa keçin".
Özümüz öz əlimizlə quyu qazdıq özümüzə, sözümüzə,
Handan-hana ayılanda ha döysək də dizimizə, üzümüzə,
Ox kamandan çıxmışdı ta, özümüzü öz əlimiz yıxmışdı ta,
Çörəyimi yeyən düşmən xəncərini ürəyimə soxmuşdu ta...
"Öz-özünə eyləyənə el yığıla edə bilməz" məsəli var,
Heyif, bizi gec ayıltdı bu məsəllər, bu hikmətlər, bu kitablar.
Özümüzə qayıtmaqçün yollar gəzdik illərlə biz, aylarla biz,
Zülmətləri yara-yara, qova-qova axtarırdıq təmiz bir iz.
Şükür Tanrı dərgahına, şükür Haqqa, Qarabağım - sinə dağım,
İndi-indi ayaq açır yeni dövrüm, yeni çağım, ilk növrağım.
İndi daha Günəş doğub - zülmətlərin bağrın yaran yeni Günəş,
O Günəşin şəfəqindən güc alaraq işıqlanır yeni duyğu, yeni həvəs...
Bundan sonra səni səndə ovudacaq o Günəşin hərarəti,
Saflaşdırıb duruldacaq hər arzunu, hər istəyi, hər niyyəti.
Bundan sonra Xarıbülbül pardaqlansın, çiçəkləsin ürəyincə,
İsa bulaq hey çağlasın bundan sonra gərəyincə, görəyincə.
Səni sənə qaytardı o Haqqa bağlı ulu qüvvət, ulu qeyrət,
***
Bu qeyrətin qabağında diz çökübdü xəstə "millət", cılız "dövlət".
Bu da bizə bir dərs olsun, bir dərs oldu, gözüm nuru, Qarabağım,
Bundan belə qoy başlasın arzu dolu, ümid dolu yeni çağın.
Bəsdi daha qucaq açdıq, çörək verdik bəşəriyyət düşməninə,
Kökü-soyu haydan gələn hayla gedər, lənət bunların cəminə...
İçimizdə kök salmışdı, qan salmışdı illər boyu düşmən əli,
Havadarlar əli ilə üstümüzə uzanırdı tülkü dili, ilan dili.
Hər biri də yerləşmişdi ürəyimin şah damarı keçən yerdə,
Əlimizi, qolumuzu bağlamışdı Vətənimdə və hər yerdə.
Doğurdular, artırdılar tülkü kimi, siçan kimi qırx gündən bir,
İçimizi, çölümüzü qoxutmuşdu, iylətmişdi basmışdı kir.
"Bir az yana çəkil" deyək haylaşaraq, birləşərək hürürdülər,
Bizi bizdə ovsunlayıb aldan-altdan işlərini görürdülər.
Üç yüz ildir qanımıza qan qatdılar bilə-bilə, görə-görə,
Üç yüz ildir başımızı aldatdılar şirin vədlər verə-verə.
"Bilmədilər" bu vandallar, yalan ayaq tutar getməz, sona yetməz,





"Bilmədilər" təmiz torpaq hiylə ilə, kələk ilə bar yetirməz.
Çörəyimə, ürəyimə dönük çıxdı haqqa dönük çıxan "millət",
Haqqa dönük çıxanlarda olmayıbdı nə cəsarət, nə də qeyrət.
İndi düşüb ayaq altda rəzil olub yalmanırlar o qapıda, bu qapıda,
İndi daha üz döndərib şərəfsizdən yaxını "düşmən sapı da".
***
Qarabağım!!! Qarabağım!!! İftixarım, şərəfətim, baş tacımsan!!
Azadlığım, ucalığım, enməzliyim, əbədilik amacımsan, əlacımsan.
Səndən ötrü qan tökmüşük tarix boyu nəsil-nəsil, fəsil-fəsil,
Səndən ötrü qan tökürük bu gün də biz şəhid-şəhid, əsil-əsil.
Havan təmiz, suyun təmiz, çörəyinin dadı təmiz, tamı təmiz,
Saf ilqarın, təmiz duyğun, təbiətin füsunkar ilhamın təmiz,
Onunçün də tarix boyu göz dağısan azğınlaşmış alçaqlara,
Onun-bunun bucağında, qucağında yallanan o yaltaqlara.
Yaltaqlığın, alçaqlığın həddi yoxdur, səddi yoxdur yaranışdan,
Yaltaqlığın, alçaqlığın gətirdiyi bəlalar da qoxuludur qarlı qışdan.
Ancaq Haqqın haqq gücü də gec eyləyir güc eyləyir el demişkən,
Bir güc var ki, Haqdan gəlib, Haqqı deyir həm yenilməz, həm döyüşkən:
Bu güc bütün məzlumların, qaçqınların, köçgünlərin haqqın tutan ulu türkdür,
Onun sözü, onun gücü Tanrı qədər çox ötkündür, çox böyükdür!
Bu dünyaya düzən üçün göndərilmiş enməz Tanrı ordusudur,
Ulu Türküm Haqq istəyən hər millətin ən müqəddəs arzusudur.
Mən də türkəm, bu düzəndə mənim də öz haqqım vardı, payım vardı.
Onunçün də Haqqa qənim olanların gözü kordur, qəlbi dardır.
Qarabağım, sən Haqq deyən bir millətin inadından doğulmusan,
Al bayraqlı, dan ulduzlu, nur hilallı bir səhərdən var olmusan.
İndi daha ruhun gülür, qəlbin gülür, gözün gülür, üzün gülür,
***
Görüşünə əli güllü, çiçək dolu dəstə-dəstə ellər gəlir, illər gəlir.
Üç yüz ildə görməmişdin sən bu qədər nə cahcəlal, nə təntənə,
Alqış deyir Yer də, Göy də taleyinə işıq saçan bu xoş günə.
Bu xoş günə qovuşmaqçün üç yüz ildir yol gəlirdi Azərbaycan
Bu xoş günə qovuşmağı gözləyirdi Şah İsmayıl - ulu xaqan...
***
Qarı düşmən, papağını (varsa əgər) qoy qabağa düşün bir az,
Yaltaqlıqla, alçaqlıqla nə bir dövlət, nə bir ölkə qurmaq olmaz.
Yaxşı deyib bəy babalar, xan babalar, hər sözü mərcan babalar:
"Oğrudan ev quran olmaz ev sahibin girdən salar, vardan salar".
Sən Allahın qarğımışı, oğrubaşı, "yazıq", "məzlum" quldurbaşı,
Hələ bir az amanın var, ətəyindən tök bu daşı, kəs savaşı,
Bir tikəyə qul eyləyib oynadırlar səni əldə, "can" deyirlər sənə dildə,
Onlar da çox gözəl bilir boğulassan, batacaqsan daşan seldə...
Yüz illərdir dadanmısan türk qanını içməyə sən şərbət kimi,
Talamısan havadarlar əli ilə türk yurdunu sərvət kimi.
İndi qalxıb ayağa, bil, haqq savaşlı Turan eli - Haqqın güclü vuran əli,
Silkələyib oturdur o öz yerində Haqqa dönük "millətləri", "ölkələri".
Baş kəsməklə, qan tökməklə yaşayarsan beşcə günlük, bir həftəlik,
Ondan sonra bükəcəklər dizlərini olacaqsan əldə ənik...
Tarixlərdən xəbərsizsən, çünki özün soysuz-köksüz tarixsizsən,
***
Tarixlərə yamaq olan zatı, kökü bilinməyən bir iblissən.
Qarı düşmən, yüz ildən bir öz əlinlə öz ölümünə qol çəkirsən,
Yüz ildən bir bəşəriyyət tarlasına fitnə səpib qan əkirsən.
Ancaq yenə abır hissi yoxdur səndə nə dünəndə, nə bu gündə
Sən çıxdığın, sən gəldiyin yerə kimi qovacağıq səni, düşmən,
Tökdüyün qan dənizində boğacağıq nəsilliklə səni həmən.
Bəlkə onda bəşəriyyət xilas oldu sənin kimi şər püskürən bir iblisdən...
***
Başı uca olan Vətən, ucalardan ucadasan dünəninlə, bu gününlə,
Bir azadlıq məktəbisən həm sağınla, həm solunla - hər yönünlə.
Onsuz da bir canda idik, indi də bir can olmuşuq - Qarabağlı,
Həm Göyçəli, Zəngəzurlu, İrəvanlı, Naxçıvanlı, Qardağlı...
Sənsiz bizim bir anımız, bir günümüz olmamışdır, ana Vətən,
Səndən belə bircə qor da aparanmaz min-min gələn, min-min gedən.
Səndən ötrü, Məmməd Araz demiş belə "biz hamımız ölə billik".
Səndən ötrü qəlbimizi, canımızı qıyma-qıyma bölə billik.
Qarı düşmən yaxşı görüb, yaxşı görür qüdrətini, cürətini,
Yaxşı bilir canındakı, qanındakı heyrətini, qeyrətini.
O heyrətdir, o qeyrətdir səni daim uca tutan, ana Vətən!..
O heyrətdən, o qeyrətdən doğulubdu sənin üçün şəhid düşən!..
Hər qayanda, hər daşında, çiçəyində, gülündə də şəhid qanı,
***
Bu dünyada "şəhid qanı tökülməyən ölkə hanı, vətən hanı"
Vətən şəhid qanı ilə yoğrulmuş bir torpaqdır ki, yox qiyməti,
Bu qiymətin qiymətidir mərd igidlər, şanlı oğullar qeyrəti
Azərbaycan, sən analar anasısan, Qarabağ da balan sənin,
Öz balana qovuşsan da, bilirəm ki, qövr eyləyir yaran sənin.
Zəngəzurun, Göyçə gölün, İrəvanın... yol gözləyir azadlıqçün,
Duyğuları oyatmalı, İlkininə qayıtmalı, olmalısan vahid-bütün.
Buna sənin cəsarətin, ləyaqətin, inamın da çatır, Vətən!
Bütöv olsan, vahid olsan, çəkinəcək, susacaqdır yoldan ötən...
Sən dünyaya Xətailər, Nadirləri bağışlayan məmləkətsən,
Bütün Şərqdə ilk azadlıq bayrağını qaldıran da, axı, sənsən,
Cümhuriyyət havasını sən daddırdın bütün Şərqə, bütün Qərbə,
Ətalətə, mütiliyə, köləliyə sən çalmısan ilkin qılınc, ilkin zərbə.
Bundan sonra mürgü vurub Haqq yolunda ləngiməyə haqqın yoxdur,
Ayaq üstə qalmaq üçün hər imkanın, hər qüdrətin yetər... çoxdur.
Bayrağını uca qaldır, ana Vətən, indi meydan, söz sənindir,
Sən Tanrıdan yaranmısan Tanrı köklü bütün Turan Vətənindir!..
Bütün tarix sədlərini əbədilik qırmaq üçün, enmək üçün,
"Vətəninin sərhədinə, son həddinə, son səddinə dönmək üçün,
Zaman döyür qapımızı,
yaman döyür qapımızı,
yaman döyür qapımızı!!!".



**Xanəli Kərimli**
***"Azərbaycan dili və ədəbiyyatı" kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru***

# BU ZƏFƏR TARİXİ ZƏFƏRDİR!

## BU PAYIZ ƏBƏDİ DİRÇƏLİŞ GƏTİRDİ YURDUMUZA

Əvvəllər payız fəsli olanda çox darıxardım. Çünki payız mənə ömrün xəzan çağını xatırladırdı. İndi isə payız təkcə mənim üçün deyil bütün xalqımız üçün azadlığa qovuşmağın, illərin həsrətinin bitməsinin və yenidən bütün gücümüzlə dirçəlməyimizin təməlinin qoyulduğu bir fəsildir. Bu payız bizim üçün sözün əsl mənasında "qızıl payız "oldu. Bu payız zəfərimizin ilk baharı oldu.Yenə ağaclar yarpaqlarını tökür, otlar, çiçəklər quruyur, torpağa qarışır. Onlarla birlikdə həsrətimiz, kədərimiz də yox olur. Artıq Qarabağ yeni, azad bahara hazırlaşır. Bu baharda bütün ağacların, otların, çiçəklərin ətri eyni olacaq. Çünki onlar azadlıq qoxusu verəcək.

Bir rəsm çək, ey türk oğlu!
Tarlalar bir başqa hazırlansın bahara
Təbil zurna səsi gəlsin obalardan
Şahə qalxsın Qarabağın atları
Cıdır düzü qız-gəlinin səsi ilə bəzənsin.

Ulu öndərin imperiyanın 70 illik əsarətindən sonra ilk dəfə Naxçıvanda ucaltdığı azadlığımızı, türklüyümüzü, imanımızı özündə birləşdirən 3 rəngli bayrağımızı bu gün Azərbaycan igidləri Qarabağda dalğalandıraraq yenidən dirçəltdi xalqımızı. Artıq o gün gəlib çatdı, azadlığa qovuşan Qarabağımız özü ilə əbədi günəş gətirdi Azərbaycana.

Dünyaya gələn hər bir insanın doya-doya yaşamaq istədiyi azadlıq qanla yazıldı vətən torpağına Qarabağda. Bu azadlıq günəşi bir daha sönməsin deyə vətən üçün canlarından keçdi igidlərimiz. Şəhid qanı ilə islanan Qarabağda türk dünyasının Çanaqqala savaşından sonra ikinci dastanı yazıldı dünyanın tarixinə.

Bu dastanla yenidən bütünləşib dirçəldi Azərbaycan. Şanlı bayrağımız Kəlbəcərin ən yüksək zirvəsində qartal kimi süzərək salamlayır Vətəni .

İşğal etdiyi yerləri tərk etməyə məcbur qalan düşmən gedərkən yenə öz xislətini gizlətməyərək evlərə, məktəblərə od vurub yandırır. Onların xislətindən doğan bu yanğın söndürüləcək, əvəzində isə bayram tonqalı qurulacaq bu müqəddəs torpaqlarda. Cıdır düzündə min illərdən bəri qoruyub saxladığımız Novruz adət-ənənələri yenidən nümayiş ediləcək. Azadlıq, Vətən müharibəsində bir yumruq kimi birləşən xalqımız o tonqalın ətrafında birləşərək milli rəqsimiz olan yallını oynayacaq. Bu payız əbədi dirçəliş, əbədi sevinc gətirdi yurdumuza. Bu gün 30 il ərzində ən gözəl, ən sevincli bayramımızı qeyd edirik. Uzaqgörənliyi, parlaq zəkası, aydın təfəkkürü, yenilməz məntiqi ilə Azərbaycanı dünyaya tanıdan ulu öndər Heydər Əliyevin əsasını qoyduğu dirçəliş gününü qazandığımız zəfərlə daha da coşqulu qeyd edirik. Ulu Öndər hər zaman "Azərbaycan xalqı birləşməli, öz müqəddəs torpaqlarını göz bəbəyi kimi qorumalıdır. Azərbaycan Respublikası iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdır.... Mən bu yoldan dönməyəcəyəm" deyirdi.

Ali Baş Komandanımızın ətrafında birləşən xalqımız bu vəsiyyəti gerçək etdi. Bu payız arzular, niyyətlər, vəsiyyətlər gerçək oldu. Ruhun şad olsun, Ulu Öndər! Sənin Azərbaycanın artıq tam azaddır. İgidlərimizin canı, qanı bahasına qazandığımız azadlıq milli dirçəliş uğurda apardığımız mübarizəmizin zəfəridir. Əbədi dirçəlişin mübarək olsun Vətən!

**İlahə Allahverdiyeva**
***Jurnalistika ixtisası üzrə II kurs tələbəsi***



## QARABAĞDA GÖRÜŞƏNƏDƏK

Xəyalına qurban olum əsgər... Heç ayaq basdığın yerlərin xəyalını qurdunmu? Səngərdəki təpənin arxasında vurulanda son dəfə göy üzünü seyr edib, mavi səmanı bəzəyən dumanda bütün həyatın canlandımı gözündə? Gözünü bürüyən bu duman sənin həyatındır - xəstələnəndə ananın yuxusuz gecələri, atanın nigaran baxışıdır, sevdiyini gizlətdiyin qız, səni qəmgin yola salan nişanlındır, nazlı yar kimi yanından ayırmadığın silahın, namərdcə səni yaralayan güllədir... Bu duman yolunu səbirsizliklə gözləyən dostun, şəhid olsan-tabutunu qarşılayan doğmalarındı. Bəli, əsgər, son dəfə səmaya baxanda ilk addım atdığın evini, uşaqlığını, bayraq əlində qaçdığın küçənizi, hərbi hissənin həyətində reallaşan arzularını xatırladınmı? Əlindən tutub addım atmağına kömək edən doğmalarının çiynində ən uca zirvəyə yola salındığını, şəhid xəbərin gələndə ananın halını göz önünə gətirdinmi?

Bilirsən ki, anan "Oğul Vətən üçündür! Qanı bu torpağa halal olsun!" - deyib dik dayanacaq. Amma, atan "Mən şəhid atası olduğum üçün xoşbəxtəm" - deyib yoluna həsrətlə baxacaq, ürəyindəki hıçqırtıları boğacaq, tabutun gələndə ən əziz qonağı tək qarşılayacaq. Axı, özü səni gəlişi olmayan gedişində yola salmışdı. Hər dəfə gələndə səni ən əzizi kimi qarşılayan anan nələr düzməzdi süfrənə. Boğazından kəsib yedirtdiyi nemətləri, atanın əlinin qabarı ilə qazandığı və öyrətdiyi düzlüyü, mərdliyi, halallığı...

Danış, ər oğul, bunların xəyalını qurdunmu? Şəhid xəbərinin gəlməsini, ailəndə qopan fəğanın, sənə bəzənən xonçaları tabutunun üstünə qoyulub alqışla yola salmağının xəyalını qurdunmu? Qurma əsgər qardaşım! Xahiş edirəm qurma bu xəyalları ! Möhkəm dayan! Özünü də qoru! Qoru ki, oğul dağı ilə qocalan anaların, gözünün qabağında şəhid olan dostlarının, qardaşlarının qisasını ala bilməyən oğulların, üzünə həsrət qalıb ata nəvazişindən xəbərsiz körpələrin, cavan yaşda dul qalan gəlinlərin, başından qara şalı açıb, könüllərini sevindirəsən. "Ya şəhid ol, ya qazi" deyən anan şəhidin əmanəti deyib ətrin gələn şəhid paltarını yox, geyindiyi libasa layiq qəhrəman əsgərini, qazisini qarşılasın. Sən də bizi işğaldan azad olan torpaqlarda qarşıla. Azad olunan torpaq demişkən, igid əsgər, işğaldan azad olan hər qarış torpağa görə sənə minnətdaram. Hər qarışda alnından axan tərə, yorulan ayaqlarına, qubar edən ürəyinə, bir sözlə övladının iyinə, ana-bacının nəvazişinə həsrət qalan canına borcluyam. Mən rahat işimdə olanda, istirahət edəndə yayın istisində dodaqları parçalanan, qışda ayazda kirpiklərinə qədər donan qəhrəman oğula minnətdaram. Mən güllə səsi eşitmədən həyatıma davam edərkən güllə səsi eşitməyəndə narahat olan əsgər qardaşım, doğmalarımla doya - doya vaxt keçirərkən aylarla yaxınlarınla görüşəcəyin günü sayan sənə borcluyam. Amma, bunu da unutma ki, üstünə hopan toz zərrəciklərindən, ayağına dəyib keçən hər daş parçası ürəyimizi dəlib keçir. Hətta, yağış yağsın deyə - dua edən bir əkinçi, bir kəndli sən islanarsan, ayağın palçıq olar - deyə yağma yağış deyib dua edir, qarın yağmasını istəyən o balaca körpələr də sən üşüyərsən - deyə bu istəyindən də keçir. Çünki bütün arzu və xəyallarımız sizdə cəmləşir. Qarabağda görüşənədək...

**Songül Vəliyeva**
***"Jurnalistika" ixtisası üzrə IV kurs tələbəsi***

## QƏLƏBƏ GÜNÜN MÜBARƏK, DOĞMA AZƏRBAYCANIM!

10 noyabr 2020-ci il tarixində Azərbaycan xalqının, Azərbaycan millətinin hər bir vətəndaşı milli qürur hissi keçirdi. Bu tarix düşmənini diz çökdürən müstəqil Azərbaycan dövlətinin qədim və zəngin tarixinə qızıl hərflərlə yazıldı. Milli şüarımıza çevrilmiş "Qarabağ Azərbaycandır" gerçəyi reallaşdı. Bütün dünya, xüsusilə də mənfur düşmənlərimiz bu şüarı təsdiqləməyə məcbur edildi. Qarabağ münaqişəsi Azərbaycanın tam qələbəsi ilə başa çatdı. 30 ilə qədər davam edən qəlbimizi göynədən bir nisgilə, içimizi yandıran bir həsrətə son qoyuldu. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin böyük qürur hissi ilə Azərbaycan xalqına müraciətini dinləyərkən, Ermənistanın məğlub olma xəbərini eşidəndə sevincdən hansı hisslər keçirdiyimi ifadə etmək çətindir. Bircə onu deyə bilərəm ki, bu qürurverici xəbəri eşidəndə gözlərimin sevinc göz yaşları ilə dolduğunu hiss etdim. Ali Baş Komandanın təbirincə desək bu günlər, bu dəqiqələr hər bir Azərbaycan vətəndaşının həyatında ən xoşbəxt günlər, dəqiqələr oldu.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağın işğalından 30 ilə yaxın bir dövr keçməsinə baxmayaraq Azərbaycan xalqı sabaha olan inamını itirmədi. Ali Baş Komandanımıza daim inandıq və güvəndik. Müzəffər Azərbaycan ordusu sonsuz cəsarət və qəhrəmanlıq göstərərək torpaqlarımızı düşməndən təmizlədi. Bu tarixi günlərdə xalqımızın vətənpərvər, yurdsevər vətəndaşı kimi bir azərbaycanlı, bir qarabağlı olaraq mənim də qəlbim fəxrlə, qürurla döyündü. Torpaqlarımızın mənfur düşməndən azad olunması uğrunda rəşadətli ordumuzun qazandığı hər bir zəfər bizi böyük qələbəyə yaxın etdi. Bu qələbə dövlət, xalq, ordu birliyinin qələbəsi idi. Bu haqqın, ədalətin qələbəsi idi. Ali baş Komandan İlham Əliyevin rəhbərliyi müzəffər ordumuzun qüdrəti altında iki yüz ilə yaxın bir dövrdə ardıcıl olaraq torpaq itirmək bəlasından Azərbaycan xalqı xilas olaraq ərazi bütövlüyünü təmin etdi. Azərbaycan xalqı bu müharibə ilə tarix yazdı. Bunun təməlində heç şübhəsiz xalqın öz liderinə sonsuz inamı, yurd, torpaq sevgisi və liderin də xalqa arxalanması durur. Rəşadətli ordumuzun Qarabağın azadlığı uğrunda sentyabr ayının 27-dən başlanan zəfər yürüşü, yüksək ruh yüksəkliyi, böyük əzmkarlıqla düşmənin işğalçı qüvvələrinə vurduğu sarsıdıcı zərbələr və göstərdiyi şücaəti hər birimiz böyük sevinc və coşğu ilə qeyd etdik. Azərbaycan Respublikasının Prezidenti dünya diplomatiya tarixində yaddaşlara həkk olunan yeni bir iz qoydu. O, Ali Baş Komandan olaraq güclü strategiyaya malik bir sərkərdə kimi dünya hərb tarixində özünə layiqli mövqe qazandı. Azərbaycanın sarsılmaz, məğlubedilməz bir ölkə olduğunu bütün dünyaya sübut etdi. Mənfur düşmən bir çox şərtlərlə sülh bağlamağa, bəyanat verməyə məcbur edildi. Bir sözlə desək, tarixi sənəd imzalandı. Bu bəyanatda Naxçıvan Muxtar Respublikası ilə bağlı məqamlar da vardır. Hesab edirəm ki, bu tarixi sənədin imzalanmasının səbəblərindən biri də Şuşanın işğaldan azad edilməsi oldu. Şuşa Qarabağın tacıdır! Şuşanın azad edilməsi həm böyük siyasi, həm böyük strateji, eyni zamanda çox böyük mənəvi məna daşıyır. Biz Şuşaya qayıtdıq! Biz-Azərbaycan xalqı Şuşada yaşayacağıq! İşğaldan azad edilən digər torpaqlarda həyat qaynayacaq! İnsanlar o torpaqlara qayıdacaq, orada yaşayacaq! Bu qələbə sevincini bəxş etdiyi üçün sarsılmaz iradəsini, əzmkar fəaliyyəti ilə qürur duyduğumuz Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı, möhtərəm cənab İlham Əliyevə və misilsiz döyüş şücaəti ilə fəxr etdiyimiz rəşadətli ordumuza məhəbbət dolu dərin minnətdarlığımı bildirirəm. Yaşasın Azərbaycan! Yaşasın Ali Baş Komandan! Yaşasın müzəffər Azərbaycan ordusu! Qarabağ Azərbaycandır!

**Humay Muradova**
***"Jurnalistika" ixtisası üzrə I kurs tələbəsi***

## Böyük qayıdış



Sən ey inci torpağım, mədəniyyət beşiyim,
Qollarına yürüyüb,qucağına çatmışıq.
Ali Baş Komandanın, Ordumun izi ilə,
Vətənin ən müqəddəs ocağına çatmışıq.

Xarı bülbül həsrətim sona çatıbdır, sona.
İndi Cıdır düzündə əzan səsi ucalır.
İndi Şuşa qalası üstünə kölgə salan
Üçrəngli göy qurşağım yağlardan öc alır.

Biz qayıtdıq, Qarabağ, nəhayət ki, qayıtdıq,
Sevincdən yallı gedir bu yurdun torpaq daşı.
Otuz ilin yarası birandaca sağaldı,
Qurudu gözlərimin illərdi axan yaşı.

Səni qaytardı bizə Ali Baş Komandanın
Yumruğu tək birləşən əzəmətli Ordumuz,
Şəhid olub uğrunda can verib, qan tökənlər,
Qoymadı əsir qala yad əllərdə yurdumuz.

Sənin azadlığına qovuşmağın yolunda
Nə oğullar gözündə yaşamaq eşqi söndü,
Atasız uşaqların baxışları deyir ki,
Təki Vətən sağ olsun, Qarabağ geri döndü.

İndi mavi səmaya möhkəmcə qışqırıram,
Azaddı Qarabağım, heç kimdən asılı deyil.
Sevincim nə yerlərə nə göylərə sığışmır,
İndi on milyon ürək birlikdə "Şükür" deyir.

**Qızbəsti Sultan**
***Jurnalistika ixtisası üzrə III kurs tələbəsi***

## Şəhidlər



Bir ana fəryadı göylərə qalxıb,
Bir ata naləsi ürək dağlayır.
Bir bacı başına qara şal taxıb,
Bir uşaq atasız qalıb ağlayır.

Əsgər yolunu gözləyən xanım,
İndi o yollardan şəhidin gəlir.
Bir vaxtı sən ona deyərdin canım.
Canının o cansız bədəni gəlir.

Başın sağolsun, uca Vətənim
Sənə can qoyan şəhidin gəlir.
General Mayor Polad Həşimlin,
Vüqarın, Rəşadın, Xəyyamın gəlir.

Vətən bayrağını göyə qaldırıb
Anarın, İlqarın, Elçinin gəlir.
Özünü bizlərə qurban eyləyib
Namiqin, Nazimin,Yaşarın gəlir.

Bizim gələcəyi işıqlandıran
Üzündən nur yağan Elşadın gəlir.
"Vətən sağ olsun!" deyən şəhidlər,
Bu yola davamçı oğullar gəlir.

**Zibeydə Əlizadə**
***Azərbaycan dili və ədəbiyyat müəllimliyi ixtisası üzrə II kurs tələbəsi***

Baş redaktor:
ŞƏHLA ŞİRƏLİYEVA
shshahla36@gmail.com

Ünvan: AZ 7012, Naxçıvan şəhəri, Universitet şəhərciyi
Telefonlar: 544-08-61 (13-60)
yenifikir.ndu@gmail.com

Qeydiyyat №330
Sifariş №
Tiraj 500

Redaktor: Samir Tarverdiyev
"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində ofset üsulu ilə çap olunmuşdur.